www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 -5 may 2019-cu il Şənbə № 96 (7266) Qiymәti 60 qəpik

**Xəbər**

## I və II dərəcə əlilliyi olanların təhsil haqqını dövlət ödəyəcək

yazısı səh.4-də

**Gündəm**

### İqtidar və müxalifətdən Əli İnsanovun dediklərinə reaksiyalar



**Əli Əhmədov:** "Buna simasızlıq deyirlər"; **Azay Quliyev:** "Əqidəsinə xəyanət edən İnsanov kimi nankorlar..."

yazısı səh.3-də

### "İki halda canavarın vurulmasına görə vətəndaşı cərimə və cəza gözləmir" - ETSN rəsmisi

yazısı səh.14-də

### Ağ Evin anti-müsəlman mövqeli rəhbərləri - ilginc səbəb

yazısı səh.9-da

### Narkotiklə tutulan xanım baş redaktorun barəsində həbs-qətimkan tədbiri seçildi

yazısı səh.14-də

### Dövlət Departamentinin nümayəndəsi müxalifətlə görüşmədən ABŞ-a döndü

yazısı səh.10-da

### Aİ ilə Azərbaycan arasında sazişin nə vaxt imzalanacağını səfir də bilmir

yazısı səh.9-da

### Müxalifət növbəti dəfə yeni siyasi blok yaradır

yazısı səh.10-da

### Bulvarda möhtəşəm əyləncə - 3 gün hər şey pulsuz olacaq

yazısı səh.2-də

### "MTN işi"nə görə həbs olunan generalların müsadirə olunan əmlakları

yazısı səh.7-də

### İŞİD liderinin video-çıxışındakı mesajlar

yazısı səh.15-də

### "İndi maddi yaradıcılıq lazımdır" - Musa Yaqub

yazısı səh.13-də

# İRƏVANIN MƏKRLİ GEDİŞİ - AZƏRBAYCANIN BAŞI ÜZƏRİNDƏN...

İşğalçı ölkə islam dünyasında özünə dayaq axtarır; **politoloq:** "Azərbaycan XİN-i bu barədə düşünməlidir"; **baş diplomatımız:** "Artıq erməni lobbisi də Ermənistanın gələcəyinə inanmır..."



yazısı səh.8-də

# Parlamentdə ilginc hostel müzakirələri

Deputat: "Mənim yaşadığım ərazidə binanı hostelə çeviriblər; biz hamımız oradan köçüb getmək istəyirik"

yazısı səh.5-də



*Misir Mərdanov:*

**"Əli İnsanov, bu yaramaz əməllərdən əl çəkmək lazımdır"**

yazısı səh.2-də



*Nazir Muxtar Babayev:*

**"Qida sahəsində kifayət qədər işlər və məlumatlandırma aparılmayıb"**

yazısı səh.6-da



**Türkiyədə Zakir Həsənova maraqlı jest**

yazısı səh.9-da




## DİM-i aldatmaq istəyənlər hakim qarşısında

### Başqasının əvəzinə imtahan vermək istəyən şəxslərin cinayət işi məhkəməyə göndərildi

**"Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən uğurlu islahatlardan biri kimi, təhsil sektorunun inkişafına yönələn dövlət proqramları və layihələrin icrası nəticəsində bu sahədə hüquqi və instusional baza daha da təkmilləşdirilmiş, eləcə də təhsil sahəsinin mühüm istiqamətlərindən biri olan ali təhsil müəssisələrinə tələbə qəbulu proseduru tamamilə şəffaf və obyektiv meyarlar əsasında keçirilməklə beynəlxalq standartlar səviyyəsinə çatdırılıb".**

Musavat.com xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatda bildirilib.

"Lakin təəssüflər olsun ki, bəzi hallarda ədalətli şərtlər əsasında ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərin qanunsuz yollarla imtahanlardan müsbət nəticə əldə etməsinə cəhd hallarına da rast gəlinir.

Belə ki, Dövlət İmtahan Mərkəzi ilə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılan birgə araşdırmalar nəticəsində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanı zamanı bir sıra qanun pozuntularına yol verilməsinə cəhd halları aşkar edilərək qarşısı alınıb.

Aparılan araşdırmalarla müəyyən edilib ki, ayrı-ayrı hallar üzrə Alışanlı Təbib Natiq oğlunun Quliyev Hidayət Zahid oğlunun əvəzinə, Rzazadə Ramazan Tofiq oğlunun iki halda Zeynalov Orxan Əfqan oğlu və Əliyev Salman Etimad oğlunun əvəzinə, Nəsibov Müzadil Qərib oğlunun iki halda Seyidov Baba Ehtiram oğlunun və Quliyev Ayaz Vüqar oğlunun əvəzinə Dövlət İmtahan Mərkəzi tərəfindən müxtəlif vaxtlarda Gəncə və Mingəçevir şəhərlərində təşkil olunan qəbul imtahanlarına saxta buraxılış sənədləri ilə keçmək istəyərkən onların həmin şəxslər olmadığı müəyyən olunaraq qanunsuz hərəkətlərinin qarşısı alınıb.

Habelə müəyyən olunub ki, həmin şəxslər ayrı-ayrı vaxtlarda Novruzov İbadət Məhərrəm oğlu, Hüseynov Rasim Köçəri oğlu, Məmmədova Yeganə Rza qızı, Mehdiyev Sərxan Nizami oğlu və Səfərov Alov Əli oğlunun vasitəsi ilə imtahanlarda digərinin əvəzinə iştirak etməyə dair razılığa gəliblər. Sadalanan faktlar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işlərinin istintaqı nəticəsində Nəsibov Müzadil Qərib oğlunun Cinayət Məcəlləsinin 320.1 (saxta sənədlərdən istifadə) və 29, 320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd), Rzazadə Ramazan Tofiq oğlunun 320.1 (saxta sənədlərdən istifadə etmə) və 29,320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd), Alışanlı Təbib Natiq oğlunun isə həmin məcəllənin 29, 320.1-ci (saxta sənədlərdən istifadəyə cəhd) maddəsi ilə təqsirləndirilmələrinə dair cinayət işləri baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Dövlət İmtahan Mərkəzi vətəndaşlara müraciət edərək ali təhsil müəssisələrinə tələbə qəbulu sahəsində qanunvericiliyin tələblərinə tam riayət etməyə çağırır".

## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

# "Əli İnsanov, bu yaramaz əməllərdən əl çəkmək lazımdır" - Misir Mərdanov

**Sabiq təhsil naziri Misir Mərdanov keçmiş səhiyyə naziri Əli İnsanovla bağlı video-çıxış yayıb. M.Mərdanov Ə.İnsanovun son müsahibəsində söylədiyi fikirlərə olduqca sərt formada münasibət bildirib.**

**Misir Mərdanovun video-çıxışında deyib:**



- Mən Əli İnsanova müraciət etmək istəyirəm. Vaxtı ilə döydüyün, söydüyün, təhqir etdiyin, aşağıladığın insanlarla indi necə bir yerdə yığışıb məsləhətləşib onlarla iş aparacaqsan? Onda camaatın nifrətinin qarşısında dayana biləcəksənmi, Əli İnsanov?! Nə qədər ki, gec deyil, bu yaramaz əməllərdən əl çəkmək lazımdır. 73 yaşında olan adam indi getsin nəvə-nəticələri ilə məşğul olsun. Sən təzədən gəlib aktiv siyasi fəaliyyətə qoşula bilməzsən. Qoşulsan da heç bir şey eləyə bilməzsən. Mən səni başa düşə bilmirəm. Əgər sən normal adam olsaydın, cənab prezidentin humanistliyi nəticəsində həbsdən çıxandan sonra sənə vaxtı ilə çörək vermiş, səni zirvələrə qaldırmış, nazir eləmiş Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət eləyərdin, onun qarşısında diz çökərdin, deyərdin ki, məni bağışla, səhv eləmişəm, üzr istəyirəm. Onda camaat səni başa düşərdi".

**Xatırladaq ki, 2005-ci ilin oktyabrında - Əli İnsanov həbs edildikdən az sonra Misir Mərdanovun da iştirakı ilə Qərbi Azərbaycandan olan bir qrup tanınmış şəxs mətbuat konfransı keçirərək, sabiq səhiyyə nazirini ağır şəkildə ittiham etmişdilər.**

❑ **M.MAHRIZLI**
**"Yeni Müsavat"**



## Xələf Xələfov xarici işlər nazirinin müavini vəzifəsinə təyin olundu

**Prezident İlham Əliyevin sərəncamı ilə Xələf Xələfov xarici işlər nazirinin müavini vəzifəsinə təyin olunub.**

Trend-in məlumatına görə, dövlət başçısının digər sərəncamı ilə X.Xələfova Prezidentin sərhəd və xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi vəzifəsi həvalə olunub.

Qeyd edək ki, bundan əvvəl X.Xələfov Nazirlər Kabineti Aparatının rəhbəri vəzifəsində çalışıb.

## "Meşə qardaşları"nın daha bir üzvünə hökm oxundu

**Mayın 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində qanunsuz silahlı birləşmələrdə iştirak etməkdə təqsirləndirilən Əhməd Məhərrəmovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

ONA-nın xəbərinə görə, hakim Siyavuş Hacıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Ə.Məhərrəmov 7 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Əhməd Məhərrəmov Azərbaycanda fəaliyyət göstərmiş qanunsuz silahlı birləşmə olan "Meşə Qardaşları" üzvü olub. Lakin o istintaqdan uzun müddət gizlənə bilib. Barəsində axtarış elan edilən Ə.Məhərrəmov bu il saxlanılıb.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**




## Bakıda "Qaqaş" ləqəbli mütəşəkkil dəstə başçısı həbs edildi

**Binəqədi rayonu ərazisində cari ilin yanvar-mart ayları ərzində bağ evlərindən silsilə oğurluqlar edən mütəşəkkil cinayətkar dəstənin üzvləri saxlanılıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ONA-ya verilən məlumata görə, Binəqədi Rayon Polis İdarəsi Cinayət Axtarış Şöbəsi və 4-cü Polis Şöbəsi əməkdaşlarının həyata keçirdikləri uğurlu əməliyyat tədbiri nəticəsində dəstənin üzvləri paytaxt sakinləri Əsədullayev Valeh Fəyaz oğlu, Məmmədov Sadiq Ağahəsən oğlu, İsmayılov Balakişi Alım oğlu, Mədətov İmran Ağababa oğlu və Hüseynov Niyaməddin Əhməd oğlu tutulublar.**

Araşdırma zamanı müəyyən edilib ki, dəstənin başçısı "Qaqaş" ləqəbli Valeh Əsədullayev olub. O, adları çəkilən şəxsləri ətrafına toplayaraq müxtəlif vaxtlarda Binəqədi, Abşeron və Sabunçu rayonlarında yerləşən bağ evlərindən oğurluq hadisələri törədib.

Saxlanılan şəxslərin Binəqədi və ərtaf rayonlarda 25 bağ evindən oğurluq etdikləri istintaq yolu ilə sübuta yetirilib.

Qeyd edək ki, dəstə üzvləri mənzillərdən əsasən kombi aparatları, televizorlar, xalçalar, müxtəlif məişət əşyaları, hətta bir neçə evin pəncərisini belə sökərək oğurlayıblar. Həmin əşyalar Valeh Əsədullayevin Binəqədi qəsəbəsində yerləşən obyektinə gətirilərək orada gizlədilib. Obyektə baxış zamanı oğurlanan əşyaların bir qismi maddi sübut kimi götürülərək istintaqa təqdim edilib. Onların yaşadıqları evlərdən oğurluqlara gedən zaman istifadə etdikləri maskalar, papaqlar, həmçinin mənzilə daxil olan zaman istifadə etdikləri alətlər də aşkar edilib.

**İstintaq zamanı həmçinin dəstə üzvlərinin başqa bir şəxsə məxsus yük avtomobilini qaçırdıqları və bağ evlərindən oğurladıqları əşyaları həmin nəqliyyat vasitəsilə daşıdıqları da müəyyən edilib.**

## Bulvarda möhtəşəm əyləncə - 3 gün hər şey pulsuz olacaq

**Bakı bulvarında 3 gün, iyun ayının 21-dən 23-nə qədər möhtəşəm şənlik keçiriləcək.**

Baku.ws xəbər verir ki, bu barədə **"Proaktiv" şirkətinin direktoru Şahənə Sarı** bildirib. Onun sözlərinə görə, 3 gün ərzində Dənizkənarı Milli Parkda uşaq və böyüklər üçün möhtəşəm tədbirlər keçiriləcək. Əyləncələr, musiqilər təşkil olunacaq. Hər kəs bu tədbirlərdə pulsuz iştirak edə bilər.

Yay həyəcanı yaşamaq istəyən uşaqlar və valideynlər dəvətlidir", - deyə şirkət rəsmisi bildirib.

## Ağdaşda "07" "Kamaz"a çırpıldı, sürücü öldü

**Ağdaşda ölümlə nəticələnən yol qəzası baş verib. Trend-in məlumatına görə, hadisə Bakı-Qazax-Gürcüstan sərhədi avtomobil yolunun 261-ci kilometrliyində, Ağdaş rayonu ərazisində baş verib.**

Gecə saatlarında Bakı sakini Nəsibov Vüqar Məhəmməd oğlu idarə etdiyi "VAZ 2107" markalı avtomobillə eyni istiqamətdə hərəkətdə olan Samux rayon sakini Zeynalov Heydər Ələddin oğlunun idarə etdiyi "Kamaz" markalı yük maşınına arxadan çırpılıb. Nəticədə V. Nəsibov hadisə yerində dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

**Bu** ilin mart ayında əfv sərəncamı ilə azadlığa çıxan sabiq səhiyyə naziri Əli İnsanov susqunluğunu pozub. O, Amerikanın Səsinə geniş video-müsahibə verib. Həmin müsahibədə sabiq nazirin səsləndirdiyi bəzi fikirlər cəmiyyət tərəfindən ciddi etirazla qarşılanıb.

# İqtidar və müxalifətdən Əli İnsanovun dediklərinə reaksiyalar







**Əli Əhmədov:** "Buna simasızlıq deyirlər"
**Azay Quliyev:** "Əqidəsinə xəyanət edən Əli İnsanov kimi nankorlar..."
**Aydın Hüseynov:** "Bu hərəkət xalqa xəyanətdir"
**Əli Əliyev:** "Həbs həyatı da sizə dərs olmadımı?"
**Fəzail Ağamalı:** "Azərbaycanın milli maraqlarına zərbə vuran..."

Əslən Qərbi Azərbaycandan olan İnsanov yerliçilik mövqeyindən çıxış edərək, hər kəsin hiddətinə səbəb olan cümlələr işlədib.

**Sitat:** "Mən heç yerdə regionçu olduğumu dilə gətirməmişəm. Mən ermənistanlı olduğumu da danmamışam. Ancaq güman edirəm ki, insan əvvəlcə öz anasını sevməlidir, sonra qonşu anaları. Belə olmayan insanları mən ikiüzlü və satqın adlandırıram. Bizdə gözəl bir məsəl var, "astını danan". Heç kəs gərək astını danan olmasın".

Sabiq nazir ermənilərin atalar sözündən də sitat gətirməyi unutmayıb.

Müsahibədə bir dəfə də olsun doğulduğu regionu Qərbi Azərbaycan kimi təqdim etməyən və hər dəfəsində ermənistanlı sözünü işlədən sabiq nazirə artıq reaksiyalar gəlməyə başlayıb.

"Azərbaycan prezidentinin əfvi nəticəsində azadlığa çıxan Əli İnsanovun mətbuata verdiyi müsahibələr onun siması və insani keyfiyyətləri haqqında tam təsəvvür yaradır: yalan, riyakarlıq, xəyanət. Onun ümummilli lider Heydər Əliyev yoluna xəyanəti artıq çoxdan bəllidir".

Modern.az xəbər verir ki, bunu baş nazirin müavini, hakim **Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov** deyib.

Onun sözlərinə görə, müsahibəsində Əli İnsanovun xəyanəti yeni formada və səviyyədə özünü göstərdi: "Keçmiş nazir indi separatçı erməni ideoloqu kimi özünü təqdim və təsdiq etməyə çalışır. Bu isə milli xəyanətdən başqa bir şey deyildir. Erməni separatçılarının ideoloji tezis kimi uydurduğu, guya ermənilərin Azərbaycanda mənəvi-iqtisalarının qeyri-mümkün olması haqqında əsassız şüarın Əli İnsanov tərəfindən dəstəklənməsinə ayrı cür ad vermək mümkün deyil. Görünür, Azərbaycan xalqının dəstəyini qazanmaq xülyasının boşa çıxmasından sonra o, ermənilərin, Qərbdəki erməni lobbisinin dəstəyinə arxalanmaq fikrinə düşüb. Burada qeyri-ixtiyari nazir olarkən İrəvana səfəri zamanı ermənilərlə qol qaldırıb oynaması haqqında vaxtilə ağızdolusu danışması yada düşür. Deməli, heç nə təsadüfən baş vermir. Hər şeyin bir səbəbi, bir izahı var. Əli İnsanovun simasının digər xarakterik cəhəti olan riyakarlıq isə ən riyakar insanlarda belə qibtə doğura bilər. On ildən çox nazir kimi çalışdığı hakimiyyəti "diktatura" adlandırması nə məntiqə, nə insanlığa sığır. Nazir olarkən bələğətlə hakimiyyəti tərifləyən, müxalifət nümayəndələrini isə təhqir edən Əli İnsanov indi tam əksini edir. Soruşmaq lazımdır: Əli İnsanov, sənin hansı simana inanaq? Vaxtilə müxalifəti ən ağır sözlərlə təhqir edərkən gördüyümüz simana, yoxsa indi əvvəllər sədaqətlə qulluq etdiyini dediyin hakimiyyətə böhtan atan sifətinə. Yəqin ən düzgün cavab bu olar ki, heç birinə. Buna isə simasızlıq deyirlər. Əli İnsanov həbsdə olduğu müddətdə Azərbaycan inanılmaz dərəcədə dəyişib, gözəlləşib, müasirləşib. İnsanlar indi daha yaxşı yaşayırlar. Düşünürdüm ki, azadlığa çıxandan sonra bu dəyişiklikləri görən insan özü də dəyişməyə bilməz. Ancaq görünən budur ki, Əli İnsanova inanmaq mümkün deyil. Onun islah olunduğunu da düşünmək sadəlövhlük olardı.

Azərbaycan xalqı ölkədəki sabitliyi, təhlükəsizliyi, inkişafı yüksək qiymətləndirir. İnsanlar ölkədə qarşıdurma yaradaraq inkişafa, əmin-amanlığa əngəl törətməyə çalışanları lənətləyir və onlara xalq-iqtidar birliyi ilə cavab verir".

"Əqidəsinə xəyanət edən Əli İnsanov kimi nankorlar həmişə siyasi ambisiyalarının və təkəbbürlərinin qurbanı olurlar".

Bunu tvitter hesabında millət vəkili Azay Quliyev yazıb. O daha sonra qeyd edib: "Bu zavallı elə bilir ki, erməni folkloruna və xarici dairələrə sığınmaqla Azərbaycanda birlik və sabitliyə zərbə vura biləcək. Əsl siyasi karikatura personajı!"

"Prezident İlham Əliyevin yüksək ideallara söykənən humanist addımı ilə azadlığa çıxan Əli İnsanov öz açıqlamaları ilə xəyanətkar simasını ortaya qoyur".

Bunu Trend-ə **Milli Məclisin deputatı Aydın Hüseynov** deyib.

**Deputat bildirib ki, hər şeydən əli üzülmüş Əli İnsanov indi də özünü separatçı erməni ideoloqu kimi təqdim etməyə çalışır:**

"Onun bu cür əsassız fikirləri Azərbaycan cəmiyyətində yalnız təəssüf doğurur. Əli İnsanovun bu hərəkəti Azərbaycan dövlətinə, xalqına xəyanətdən başqa bir şey deyil. Erməni separatçılarının ideoloji tezis kimi uydurduğu əsassız şüarın Əli İnsanov tərəfindən dəstəklənməsi milli xəyanətdir".

A.Hüseynovun sözlərinə görə, Azərbaycan xalqının dəstəyini qazanmaq xəyalının əsassız olduğunu görən Əli İnsanov ermənilərə arxalanmaq fikrinə düşüb:

"Əli İnsanov vaxtilə yüksək dövlət vəzifəsi icra edərkən Heydər Əliyev ideyalarına, siyasi xəttinə qarşı çıxaraq xəyanətkar mövqeyini ortaya qoyub. Görünür, bu gün də eyni siyasi əxlaqın daşıyıcısı olaraq həyatına və yoluna davam edir. O, cılız ambisiyalarının əsiridir və ermənilərlə birlikdə bu xalqdan qisas almaq missiyasını həyata keçirməkdə israrlıdır".

Ə.İnsanovun dedikləri müxalifət düşərgəsində də etirazla qarşılanıb.

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev** özünün fecebook səhifəsində bunları yazıb: "Əli İnsanovun vətəndaş və insani haqlarını müdafiə edənlərdənəm. Həbsdəki yaşamına da sayğı ilə yanaşmışam. Amma heç zaman onun şovinistcəsinə regionçuluğuna hörmətim olmayıb. İnsanların 40-dan sonra dəyişdiyinə inanmıram. Amma düşünürdüm ki, hörmətli akademik bu ağır taledən, aldığı dərslərdən nəticə çıxarar. Təəssüf... Çünki millətin indi ziyalılara, alimlərə, siyasət adamlarına zəruri dərəcədə ehtiyacı var. Hesab edirdim ki, Əli müəllim YAP-ın ölkəyə vurduğu zədələrdə, özünün nazir olarkən buraxdığı səhvlərdən və yeni baxışlarından danışacaq. Əfsuslar...

Verdiyi müsahibədə yaraşdırmadığım şəkildə yenidən milləti doğma və ögeyə böldü. Regionçuluqla bağlı əvvəldən hazırlanmış suala, çox biabırçı bir cavab verdi: "Adam əvvəl doğma anasını, sonra başqa anaları sevər".

*Hörmətli, Əli müəllim! Yetmədimi milləti daxildən ögey doğmalara böldünüz? Həbs həyatı da sizə dərs olmadımı? Abdullayev və Umnyaşkin nümunələri sizə yerliçiliyin yanlış olduğunu sübut etmədimi?*

Sizin əzmlə mübarizəyə atılacağınızı, qurulmasında yaxından iştirak etdiyiniz hakimiyyətin demontajında qatqınızı səbrsizliklə gözləyirdim. Növbəti dəfə heyfslənirəm ki, bu da belə!. Amma qayıdın o yoldan, nə qədər gec deyil. Dilində gözəl danışdığınız hayların təhlükəsi qarşısında, millətin vəhdəti mühüm dərəcədə zəruridir. Daxili parçalanma gücümüzü azaldır".

**Ana Vətən Partiyasının sədri, əslən Qərbi Azərbaycandan olan deputat Fəzail Ağamalı** "Yeni Müsavat"ın sorğusuna cavab olaraq Ə.İnsanovun dediklərinə bir cümlə ilə reaksiya bildirib: "Onun anti-milli, Azərbaycanın milli maraqlarına zərbə vuran, aqressiv fikirlərinə hər hansı bir münasibət bildirməyi özümə rəva bilmirəm".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# İnsanovun açıqlamaları qazandığı nifrəti dağıtmaq gücünə malik deyil...



**Elman BABAYEV**

**Keçmiş səhiyyə naziri Əli İnsanov həbsdən çıxdıqdan sonra məqsədli şəkildə qeybə çəkilmişdi. Yeni bununla düşünülmüş formada belə bir rəy yaratmışdı ki, guya ortaya sensasiyalı bəyanatlarla, fərqli düşüncə tərzi ilə çıxacaq. Müəyyən fasilədən sonra "Amerikanın Səsi"nə verdiyi müsahibə, onun heç bir fərqli imkanlara sahib olmamasını bir daha sübut edir. Verdiyi açıqlamalarla hətta o sübut olunur ki, vəzifədə olarkən cəmiyyət tərəfindən qazandığı nifrəti dağıtmaq gücünə malik deyil...**

Müsahibədəki məqamlara diqqət etməklə, Əli İnsanovun belə gurultulu görünən bəyanatlarla hara qədər gedə biləcəyini anlamaq mümkündür.

Əvvəla, başlayaq ondan ki, Əli İnsanov təşkilat yaratmaq istəyir. Təşkilat yaratmaq hamının haqqı olduğu kimi onun da haqqıdır. Amma əgər belə bir fəaliyyətlə insan dəstəyi qazanmaq, yaxud, qeyri-hökumət təşkilatı, istərsə də siyasi xarakterli qurum kimi xaricdən maliyyə və siyasi dəstəyə ümid edirsə, bu cəhdlərin hamısı perspektivsizdir. Nəyə görə?

Çünki Azərbaycan xalqı müsbət reputasiyası olan fiqurlara dəstək verir. Onunsa reputasiyası nazir işlədiyi vaxtlardan korlanıb. Üstəgəl, dövlət çevrilişinə cəhddə iştirak etməklə həbsxanada yatıb. Əli İnsanov təşkilat yaratmaq istəyini guya Azərbaycanın çətin vəziyyətdə olması ilə əlaqələndirməklə, əslində özünü gülünc duruma salır. Ona görə ki, əgər doğrudan da Azərbaycan çətin vəziyyət yaşayırsa, Əli İnsanov onu xilas edəcək adlar arasında qətiyyən yoxdur. Bir adam ki, vəzifəyə koorrupsiya gözü ilə baxır, tibb sisteminə yerlibazlıq xəstəliyi gətirir, bir adam ki, hakimiyyət ehtiraslarını dağıdıcı üslubda, yəni çevriliş metodunda görür, belə adamın bu cəmiyyətə zərrə qədər xeyri olmaz, əksinə təhlükəlidir.

Əli İnsanovun Milli Şura deyilən köhnə müxalifət komandasının təəssübkeşi kimi görünməsi tamamən saxtakarlıqdır.

Xatırlayaq, vəzifədə olduğu zamanları ki, o, İsa Qəmbəri, Əli Kərimlini necə söyürdü. Bugünkü mülayim davranışı ondan xəbər verir ki, onun müxalifətçilik praktikası olan adamlara ehtiyacı var. Onlardan bunun yollarını öyrənmək, onlarla birlikdə gündəmi zəbt etmək istəyir. Əgər doğrudan da, müxalifətdəkilərə inanırsa, dəstəyində səmimidirsə, "əməkdaşlıq edərik, birləşmək yox" kəlməsinə tələsməzdi. Deməli ki, çəkinəcəyi məqamlar var; müxalifətə güc qatmaq istəmir, əksinə müxalifətdən öz nəfinə faydalanmağa çalışır.

Özünü siyasətçi obrazında aparan Əli İnsanovun siyasətdən uzaq adam olduğu oradan ortaya çıxır ki, o, İlham Əliyevin Ağ Evə dəvət olunmamasında böyük siyasi qüsur axtarır. Halbuki Ağ Evə dünyanın böyük dövlətlərinin birinci şəxslərinin girib-çıxması söz predmeti ola bilər. Məgər Belarus prezidenti, Qazaxıstan prezidenti, Gürcüstan, Moldova... hansı prezident Ağ Evdə görünür?!

Əli İnsanov beynəlxalq siyasətdən, Azərbaycanın xarici siyasətindən ümumiyyətlə, xəbərsizliyini nümayiş etdirir.

"Mən İlham Əliyevi Avropaya inteqrasiya edərsə, dəstəkləyəcəm". Məlumatsızlıq birinci bu sitatdadır. Məgər Azərbaycan illərdir, Asiyaya inteqrasiya olunur?! Azərbaycanın Avropaya inteqrasiya etmədiyi bir gün varmı? Azərbaycan az qala, 20 ildir Avropa ilə qucaqlaşıb! Bütün beynəlxalq projelərdə Avropa ilə birləşib. Görünür, Əli İnsanov həbsxanada mətbuatı yaxşı izləməyib. Ya da qəsdən, ortaya çıxmaq üçün ölkənin rəhbərini nələrdəsə suçlamaq lazımdır - xəttini seçir.

Təbii, o, bunları bilməz, çünki ömür boyu "İnsanovin" dərmanının icadı ilə məşğul olub. Ömrü boyu səhiyyə adamı olub. Siyasət, siyasi partiya, Heydər Əliyevin kölgəsi ona hər zaman yüksək mövqeyə çatmaq, sərvət toplamaq üçün gərək olub. Necə ki, indi də siyasət ona meydana girmək üçün lazımdır. Axı gərək həkim kimi istedadın, peşəkarlığın yerində qalsın ki, heç olmasa, həkimliyə qayıda biləsən - Əli İnsanov 15 il özünü məhkum etdiyi ağır həyat yolu ilə şərəfli peşəsindən də uzaqlaşıb.

**Siyasət özünü xilas, özünü gündəmə gətirmək üçün tutulan bir möhkəm ip olsa da, hər adama zəfər gətirmir. Yeni təşkilat iddialısı Əli İnsanovun yeri siyasətin zəfər vermədiyi bir yığın insanın yanında olacaq!**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

# I və II dərəcə əlilliyi olanların təhsil haqqını dövlət ödəyəcək

## Prezidentin növbəti sosial addımı; ekspert: "Artıq biz deyə bilərik ki, ölkədə təkcə orta təhsil deyil, eyni zamanda ali təhsil də ödənişsizdir"

**Prezident İlham Əliyev "I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında" sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019-2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödəniləcək. Prezidentin bu addımı ictimaiyyət tərəfindən müsbət qarşılanıb. Qeyd olunub ki, bu əhalinin aztəminatlı təbəqəsinin də təhsillə əhatə olunmasına, onların sosial durumuna müsbət təsir edəcək.**



Prezidentin sərəncamını dəyərləndirən **təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, I və II qrup əlilliyi olan şəxslərin təhsil haqqından azad edilməsi ödənişsiz təhsil alanların sayına kəskin şəkildə təsir göstərəcək: "Bildiyiniz kimi, ölkə prezidenti Cənab İlham Əliyev 2019-cu ilin əvvəlində ali təhsil müəssisələrində ödənişsiz plan yerlərinin 50 faizə çatdırılması barədə sərəncam imzalmışdı. Bundan sonra isə I və II qrup əlilliyi olan şəxslərin təhsil haqqından azad edilməsi ödənişsiz təhsil alanların sayına kəskin şəkildə təsir göstərəcək. Vacib bir məqamı qeyd edim ki, hazırda ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, eləcə də orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təqribən 2500 nəfər əlilliyi olan şəxs təhsil alır. Həmin tələbələrin illik təhsil haqqı xərclərinin ödənilməsi üçün orta hesabla 4 milyon manat vəsait tələb olunur. Bu kateqoriyaya malik olan şəxslər var idi ki, onlar maddi imkanları olmadığı üçün ali təhsil ala bilmirdilər. Amma bundan sonra fiziki çatışmazlığı olan şəxslər də ödənişsiz ali təhsil ala biləcəklər və onların cəmiyyətə adaptasiyası baxımından bu olduqca müsbət addımdır. 2010-cu ildən universitetlər özünü maliyyələşdirməyə keçib və dövlət təkcə tələbə təqaüdlərini ödəmir, eyni zamanda 52 ali təhsil müəssisəsində təhsil alan 60 min tələbənin həmdə təhsil haqlarını ödəyir".

**Eksperti n sözlərinə görə, son illərdə maddi imkanı olmadığı üçün müəyyən qədər şəxs ali təhsil almaqdan məhrum olurdu:** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinə görə, dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Həmin qanuna əsasən dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir və dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Artıq biz deyə bilərik ki, ölkədə təkcə orta təhsil deyil, eyni zamanda ali təhsil də ödənişsizdir".

**K.Əsədov vurğuladı ki, dövlətin əsas qayəsi təhsilin əhatə dairəsinin genişləndirilməsi və əlçatımlılığının təmin olunmasıdır:** "Hətta İlham Əliyevin 2003-cü ildə imzaladığı sərəncamla bundan sonra pulsuz orta təhsil alanlara bütün kitablarda pulsuz olaraq verilib. Ölkə başçısının 2013-cü ildə imzaladağı Təhsilin inkişafı üzrə dövlət strategiyasının da əsas istiqamətlərindən biri də təhsilin əhatə dairəsinin genişləndirilməsi və əlçatımlılığının təmin olunması idi ki, bu sərəncamla da qeyd olunan istiqamətlər yerinə yetirilmiş oldu. Çünki buna qədər də aşağıdakı kateqoriyaya aid olanlar azad edilirdisə, bundan sonra təhsil haqqından azad edilənlərin əhatə dairəsi daha da genişləndi. 2011/2012-ci tədris ilindən etibarən məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları "Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlərin təhsil xərclərinin ödənilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2011-ci il tarixli Sərəncamı ilə təhsil haqqından azad edildi.

**Şəhid ailəsi statusunu almış ailənin üzvü "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının 3 sentyabr 1993-cü il tarixli Qanununun 3-cü maddəsi ilə 2014/2015-ci tədris ilindən etibarən təhsil haqından azad edildi:** "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 18 mart 2014-cü il tarixli Sərəncamı ilə bu qərar təsdiqini tapdı. 2013/2014-ci tədris ilindən etibarən 18 yaşınadək hər iki valideynini itirmiş və yaxud bir valideyni vəfat etmiş, o biri valideyni I və II qrup əlil olan uşaqlar, "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu (maddə 14-8-1) ilə və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının 22 iyun 1999-cu il tarixli Qanunu (maddə 5) ilə təhsil haqqında azad edildilər".

Təhsil eksperti sağlamlıq imkanları məhdud uşaqların da təhsilə cəlb olunması istiqamətində addımların atıldığını qeyd etdi.

**Sabiq maliyyə naziri Fikrət Yusifov** isə vurğuladı ki, bu Prezidentin vətəndaşlarımızın aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı növbəti addımdır: "Hesab edirəm ki, bu qrup insanların və əlilliyi olan şəxslərin dövlətin bu şəkildə dəstəyinə olduqca böyük ehtiyacı var idi. Gözlənilən odur ki, cari ilin sonuna qədər biz bu qəbildən ola biləcək bir çox digər qərarların da qəbul ediləcəyini görə biləcəyik. Bütün bunlar dövlətin sosial siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidi".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Köhnə diktorlar efirə qayıdarsa...

## Qulu Məhərrəmli: "Yaxşı televiziya tamaşaçının ardınca getməməlidir, ona müəyyən mənada bələdçi kimi yol göstərməlidir"

**Diktorluq yenidən Azərbaycan efirində prestijini bərpa edə bilər. Belə ki, AzTV-nin sədr səlahiyyətlərini icra edən Rövşən Məmmədov Dövlət Televiziyası və Radiosunda çalışmış yaşlı diktorları görüşə dəvət edib. Bu görüşdə iştirak edən tanınmış diktor Nailə İslamzadə bildirib ki, Rövşən Məmmədov illərlə nəinki efirə, AzTV-nin həyətinə girməyə belə həsrət qalan diktorlara birlikdə işləmək və təcrübələrindən faydalanmaq istədiyini bildirib. "Onun bizə verdiyi dəyər, əslində onun özünü ucaltdı" - deyə Nailə İslamzadə əlavə edib.**



Qeyd edək ki, müstəqillik illərində diktorluq məktəbinin sıradan çıxması, onun yerini müasir və daha sərbəst aparıcı tipinin alması geniş izləyici kütləsi tərəfindən də müsbət qarşılandı. Tamaşaçılar yeni aparıcıların hər bir jestini, mimikasını, bədən dilini böyük maraqla izləyir, təhlil və müqayisə edirdilər. Lakin sonradan bəzi özəl telekanallarda aparıcıların efirdə bayağı hərəkətlərə yol verməsi, gərəksiz sərbəstlik nümayiş etdirməsi, yenidən köhnə diktorları arzulanan şəxslərə çevirdi. Bu mənada AzTV-nin yeni sədrinin diktorları yenidən efirə dəvət etməsi sosial şəbəkədə müsbət qarşılanıb. Arqument isə odur ki, tamaşaçı artıq efirdə normal imici olan aparıcı görmək istəyir. Bəs ekspertlər, tanınmış telejurnalistlər nə deyir?

Televiziya eksperti, professor Qulu Məhərrəmli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, televiziyada çox şeyi verilişin formatı, janrı xarakteri, mövzusu müəyyənləşdirir: "Burada cavanlıq, yaşlılıq əsas deyil. Əlbəttə müəyyən etik prinsipləri gözləmək lazımdır. Bizim üçün kamil və peşəkar aparıcı məsələsi önəmlidir. Vaxtilə Nizami Xudiyev də AZTV-yə gələndə aparıcıları tədricən sıradan çıxartdı, diktorları önə çəkdi. Diktorun da apardığı müəyyən veriliş var, o müəyyən mənada televiziyanı təmsil edir. Bu institut da müəyyən qədər işləyə bilər. Amma televiziya daha çox jurnalistikadır. Diktorların arasında da elələri var ki, bu gün də veriliş aparsa, ona baxmaq olar. Tamaşaçını inandıra bilən, ona təsir edə bilən, onu duyğulandıra bilən, ona informasiya verə bilən, inandıra bilən aparıcı lazımdır".

**Xarici təcrübəyə toxunan Q.Məhərrəmli vurğuladı ki, hazırda Amerika televiziyalarında nisbətən yaşlı aparıcılar önə çəkilir:** "Onlar onu bununla əlaqələndirirlər ki, bu aparıcılara cəmiyyət daha çox inanır. O baxımdan əgər yaxşı veriliş layihələri hazırlaya bilsələr, ona uyğun dünənin və bu günün aparıcılarından istifadə etmək olar. Ümumilikdə isə, tarixən diktor avtoritar düşüncənin məhsuludur. AzTV-də 90-cı illərin əvvəllərindən başlayaraq da, diktorlar da veriliş aparmağa başladılar. Ancaq aparıcılıqla zamanın bağlılığı azalanda, müəyyən bir daralma prosesi gedəndə o aparıcılar ekrandan uzaq düşürlər, onların efirdə yeri olmur. Ona görə də, hər şey zövqdən və yanaşmadan asılıdır. Birinci verilişin formatı, mövzusu, məqsədi, elementləri çox önəmlidir. Gənclər arasında da ağıllı, intellektual, peşəkar aparıcılar olur ki, onları izləmək də çox maraqlıdır".

**Media eksperti telekanallardakı bayağı verilişlərin cəmiyyətdən gələn tələb üzərində qurulduğunu qəbul etmədi**: "Büdcədən maliyyələşən AzTV və İctimai Televiziya kimi kanallarda bayağı verilişlər olmur. Ancaq özəl telekanallar bizə hər gün o cür verilişlər təqdim edirlər. Ona görə də bu məsələdə çox şeyi tamaşaçının və auditoriyanın boynuna qoymaq olmaz. Yaxşı televiziya tamaşaçının ardınca getməməlidir, ona müəyyən mənada bələdçi kimi yol göstərməlidir".

**Tanınmış teleaparıcı Turan İbrahimov** da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, köhnə diktorları efirə qayıtması arzuolunandır: "Son vaxtlar AzTV-də aparılan islahatlar, Azərbaycan televiziyası üçün dəyər olan şəxslərin yenidən geri qaytarılması, müasirliyin də həmin bünövrənin üzərində inkişaf etdirmə tədbirləri alqışlanmalıdır. Bu, cəmiyyətin çoxdan gözlədiyi bir addım idi. AzTV təkcə bir kanaldan ibarət deyil, o bütün telemekanı əhatə edən bir məktəbdir. O baxımdan köhnə və təcrübəli kadrların yenidən televiziyalara qaytarılması bu məktəbin bərpa olunması deməkdir. Mən bunu çox yüksək qiymətləndirirəm və alqışlayıram".

**Efirdə bəzi müasir aparıcıların etdiyi bayağılığın köhnə diktorları yenidən arzuolunan etməsinə gəlincə, T.İbrahimov bildirdi ki, AzTV-nin üslubunu, kadr bazasını, efirdəki yaradıcılıq yanaşmasını özəl kommersiya kanalları ilə müqayisə etmək düzgün deyil:** "Cəmiyyətə də bunu başa salmaq lazımdır ki, əgər bayağılıq görməyi özlərinə rəva bilmirlərsə, o zaman ancaq AzTV və İctimai televiziyaya baxsınlar. Kommersiya telekanallarının təyinatı başqadır. Onlar sırf reytinqə, reklam gəlirlərinə yönəldikləri üçün bayağı aparıcıları bəyənməyən o kütlənin diqqətini çəkmək üçün bunu edirlər. Əgər tamaşaçı o şitliklərə, bayağılıqlara baxmasaydı, o reytinq cədvəlləri formalaşmazdı, reklam cədvəlində həmin verilişlər birinci yerdə gəlməzdi. O bayağılıqların efirə çıxmasının səbəbkarı həmin kanalların rəhbərliyi, yaradıcı və texniki heyəti yox, məhz cəmiyyətdir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

**Mayın 3-də Milli Məclisin növbəti plenar iclası birinci vitse-spiker Ziyafət Əsgərovun sədrliyi ilə keçirildi. İlk olaraq "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi ilə bağlı ikinci səsvermə keçirildi. Komitə sədri Əli Hüseynlinin təqdimatından sonra 105 deputat dəyişikliyə səs verdi.**



# Parlamentdə hostel müzakirələri

## Deputatlardan ilginc çıxışlar: "Mənim yaşadığım ərazidə binanı hostelə çeviriblər; biz hamımız oradan köçüb getmək istəyirik"

Bundan sonra **daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazov** İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatını təqdim etdi. Milli Koordinator bildirdi ki, BMT-nin 2019-cu ildə yaydığı hesabatda dünyanın əksər ölkələrində insan alveri qurbanlarının artdığı qeyd olunub. Qeyd etdi ki, Azərbaycan Respublikasında sayca üçüncü Milli Fəaliyyət Planına uyğun olaraq insan alverinə qarşı mübarizə kompleks və sistemli şəkildə aparılır. V.Eyvazov bildirdi ki, ötən il həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ölkədə 144 insan alveri, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 35 cinayət qeydə alınıb, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib, axtarış elan olunmuş 51 təqsirləndirilən şəxsdən 66,6 faizi və ya 34-ü tutulub. V.Eyvazov qeyd etdi ki, insan alveri və məcburi əmək cinayətlərinə görə başlanılmış cinayət işlərindən 27-nin istintaqı tamamlanaraq 34 təqsirləndirilən şəxs *(29-u qadın, 5-i kişi)* məhkəmə məsuliyyətinə verilib, 23 insan alverçisi barədə ittihamedici hökmlər çıxarılıb: "Müəyyən edilən 98 insan alveri qurbanından *(82 qadın və 16 kişi, hamısı Azərbaycan Respublikasının vətəndaşı)* 71-i istismar məqsədilə Türkiyə Respublikasına, 20-si Rusiya Federasiyasına, 3-ü İran İslam Respublikasına aparılıb, 2-si isə Birləşmiş Ərəb Əmirliklərində, 1-i Malayziyada, 1-i isə Azərbaycanda istismara məruz qalıb. Zərərçəkənlərdən 95-i Daxili İşlər Nazirliyinin sığınacağına yerləşdirilərək hər birinə tibbi, psixoloji, hüquqi yardımlar göstərilib, 61-i sosial xidmətlərlə əhatə olunması məqsədilə qeyri-hökumət təşkilatlarına, 92-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İnsan alveri qurbanları üçün Yardım Mərkəzinə istiqamətləndirilib. Nəticədə onlardan 32-si işlə təmin edilib, 46-sı peşə kursuna göndərilib, 69-u ailələrinə qaytarılıb, eləcə də hər birinə 400 manat məbləğində birdəfəlik müavinət ödənilib. Qurbanların övladları da diqqət mərkəzində saxlanılaraq 25 uşaq məktəbəqədər təhsil proqramına yönəldilib, 16-nın atalığı müəyyən edilərək alimentlə təmin olunmasında, 13-nə lazımi sənədlərin alınmasında köməklik edilib. Xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığa götürmə və digər məsələlərlə bağlı "152 saylı Qaynar xətt" telefon xidmətinə daxil olan 6 310 müraciət araşdırılaraq qanunauyğun ölçülər götürülüb, təşəbbüskarlara zəruri izahlar verilib".

V.Eyvazov həmçinin bildirdi ki, uşaq əməyinin istismarının qarşısının alınması məqsədi ilə keçirilən reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 450 uşaq müəyyən edilib.

Milli Koordinatorun sözlərinə görə, ötən il insan alverinə qarşı mübarizədə fərqlənən QHT-lər mükafatlandırılıb.

Məruzəçi onu da bildirdi ki, 169 şəxs cinayət məsuliyyətinə cəlb olunub. Beynəlxalq cinayətkar şəbəkənin ölkənmizdə fəaliyyət göstərməsinin qarşısı alınıb, iki mütəşəkkil dəstə zərərsizləşdirilib, həmçinin qurbanlar mərkəzlərə yerləşdirilib.

**Bundan sonra müzakirələr oldu. Deputat Qüdrət Həsənquliyev polis orqanlarında çalışanların fəaliyyətini yüksək qiymətləndirdi. Deputat polis orqanlarında çalışanların əmək haqqı ilə bağlı təklif verdi:** "Bu gün cinayət axtarış şöbəsinin zabiti 523 manat maaş alır. Bu, kifayət qədər azdır. May ayında büdcəyə baxacağıq, daxili işlər orqanlarının əməkdaşlarının əməkhaqqını ən azı iki dəfə artırmalıyıq. Həmçinin Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının da maaşı aşağıdır. Bu qurumun əməkdaşlarının orta əmək haqqı 350 manatdır. Mən həmkarlarımdan soruşmaq istəyirəm, 350 manatla indiki dövrdə necə yaşamaq və ailə saxlamaq olar? Odur ki, bu qurumun əməkdaşlarının da maaşının artırılması çox yaxşı olardı".

**Deputat Tahir Kərimli** Milli Koordinatorun hesabatını təqdir etməklə yanaşı, ondan kömək istədi. Yaşadığı ünvanda üzləşdiyi biabırçılıqdan bəhs edən deputat "Hamı sözünü deputata deyir, mən sözümü kimə deyim, bilmirəm?" - deyə, şikayətləndi. T.Kərimli qeyd etdi ki, Zərifə Əliyeva küçəsindəki mənzilinin bir hissəsinin hostelə çevrilməsi bütün qonşuların rahatlığını pozub: "Mənim yaşadığım ərazidə binanı hostelə, mehmanxanaya çeviriblər. Bir balaca abır-həyamız var... İndi biz hamımız ordan köçüb getmək istəyirik. Mərkəzi küçə olduğuna görə belə yuvalar düzəldirlər, onlar insan alveri yuvalarıdır. Bu ərazidən vaxtaşırı hörmətli qonaqlar, həmçinin prezident keçir". Deputat Milli Koordinatordan bu ünvandakı qanunsuz hərəkətləri nəzarətə götürməyi xahiş etdi.

**Deputat Araz Əlizadə** də bu mövzuda danışdı: "Yavaş-yavaş Azərbaycanda seks turizmi inkişaf etməyə başlayır. Nədir, biz Tailandla, digər ölkələrlə rəqabətə giririk? Onsuz da bunu bacarmayacağıq..." A.Əlizadə qeyd etdi ki, hostellərlə bağlı məsələyə yenidən baxılmalıdır: "Rusiyada çoxmərtəbəli binalarda hostellərin yaradılmasına icazə vermişdilər. Ancaq gördülər ki, bu, mümkün deyil. Ona görə də Rusiya Dövlət Duması qərar verdi ki, hostellər yalnız birinci mərtəbədə yaradıla bilər, bir şərtlə, oraya başqa tərəfdən giriş-çıxış olsun. Məncə, biz də bu təcrübədən istifadə etməliyik".

**Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov** səslənən fikirlərə münasibət bildirdi: "Azərbaycana kənardan gələn insanların hesabına insan alveri problemi artır. İnsan orqanlarının qanunsuz satılması dünyanın hər yerində var, Azərbaycanda bunun qarşısı alınır". Deputat qeyd edib ki, bu gün on minlərlə insan Aralıq dənizində, Qırmızı dənizdə itir, onlar insan alverinin qurbanına çevrilir: "Ərəbistan yarımadasında da çoxsaylı insanlar insan alverinin qurbanına çevrilir. Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşir. Çalışmalıyıq ki, gələcəkdə belə hallar Azərbaycanda olmasın. Biz insan alverinə qarşı hesabatın formatına da yenidən baxmalıyıq. Bəlkə də Dövlət Miqrasiya Komitəsi də bu hesabatların təqdim edilməsində iştirak etməlidir".

**Vilayət Eyvazov fikir və təkliflərə münasibət bildirdi və parlamentlə əməkdaşlığa üstünlük verdiyini qeyd etdi:** "Hostellərin fəaliyyəti ilə bağlı narahatlıq başadüşüləndir. Sahibkarlıqla bağlı fəaliyyətə müdaxilənin qarşısının alınması ilə bağlı müvafiq sərəncam var". **V.Eyvazov bildirdi ki, bu problemlərin həll edilməsi mümkündür:** "Biz sizinlə birgə inzibati yolla deyil, izahedici, maarifləndirici işlərlə bunu həll edə bilərik".

**Parlament yekdilliklə Milli Koordinatorun məruzəsini qəbul etdi.**

Gündəlikdəki digər məsələlərin müzakirəsi zamanı çıxış edən deputat Fazil Mustafa növbəti dəfə kitab satışına dəstək verilməsi barədə danışdı. "Kitab niyə metroda qadağan olunsun? Kitabdır da, qoyun satılsın, siqaret deyil, içki deyil"-F.Mustafa bildirdi.

**Birinci vitse-spiker Ziyafət Əsgərov deputatın fikirlərinə reaksiya verdi:** "Fazil müəllim, bu saat Bakıda kifayət qədər kitab evləri, kitab mağazaları var. Təki kitab oxuyan olsun, lazımdırsa, mən 200-300 kitab verə bilərəm, pulsuz-parasız. Özü də elmi kitablardır. Təki kitab oxumağa həvəs olsun".

"Orta məktəblərdə uşaqları şikəst edirlər, belə getsə, bu millətin gələcəyi olmayacaq". Bunu isə **deputat Aqil Abbas** söylədi. O qeyd etdi ki, uşaqlar ağır çantaları daşıya bilmir: "Hətta ataların, anaların da beli əyilib bu çantaların ağırlığından. Bu nədir, nə məcburiyyətdir?! Biz də oxumuşuq, biz də məktəbə getmişik". A.Abbas bundan sonra komitə sədri İsa Həbibbəyliyə müraciət etdi: "Heç olmasa bu kitabları elə kağızlarla istehsal etsinlər ki, yüngül olsun. İslahatın biri də bu məsələ ilə bağlı olsun. Nəvəm məktəbə gedir, çantasını mən götürə bilmirəm. Heç olmasa növbəti tədris ilində bu məsələyə fikir vermək lazımdır".

Milli Məclis "Aqrar sığorta haqqında" qanun layihəsini birinci oxunuşda müzakirəyə çıxardı.

**Deputat Vahid Əhmədov** qanun layihəsi ilə bağlı çıxış edərək əvvəlcə layihəni hazırlayanlara təşəkkür etdi: "2002-ci ildə aqrar sığorta ilə bağlı qanun qəbul olunsa da, üstündən 17 il keçməsinə baxmayaraq, həmin qanun işləməyib. Sığorta bazarında belə bir qanunun qəbul edilməsi çox vacibdir". Deputat bildirdi ki, 2018-ci ildə sığorta bazarına cəmi 29 milyon manat vəsait daxil olub. V.Əhmədov qanunun dilinin sadə olmasını zəruri saydı. O, sığortaçı ilə sığorta alan arasında hansısa əlavə qurumun yaradılmasına ehtiyac olmadığını da bildirdi. "İnsanlarda sığortaya faktiki olaraq inam yoxdur" - deyən deputat bu qanunun işləməsi üçün təkliflərini səsləndirdi. Bildirdi ki, aqrar sığorta könüllü olmalıdır və qanunda ayrıca maddə ilə əksini tapmalıdır: "Hər bir sığortaçının əmlakı da mütləq nəzərə alınmalı, sığorta olunmalıdır. Necə ola bilər ki, biz aqrar sığorta edənin məhsulunu sığorta edirik, amma onun mülkiyyətini sığorta etmirik?" Ölkədə 22 sığorta şirkətinin olduğunu deyən V.Əhmədov qeyd etdi ki, burada rəqabət mühiti yarana bilər. "Sığortada ən ciddi məsələlərdən biri qiymətləndirmə ilə bağlıdır. Sığortaçı ilə sığorta olunan arasında ən çox ciddi mübahisə qiymətləndirmə ilə bağlı baş verir. Azərbaycanda kifayət qədər qiymətləndirmə ilə bağlı mütəxəssislərimiz var. Yaxşı olardı ki, yerli kadrlardan istifadə edək və xaricdən ekspertlər dəvət etməyək".

**V.Əhmədov yekunda təklif etdi ki, birinci oxunuşda qanun layihəsi qəbul olunsun, amma onun üzərində işləmək üçün işçi qrupu yaradılsın:** "Təklif edirəm ki, işçi qrupu yaradaq və qanun layihəsini yenidən işləyək. Əgər bu qanun layihəsi indiki səviyyədə qəbul olunsa, o, 2002-ci ildəki qanunun taleyini yaşayacaq".

**Deputat Əli Məsimli** isə bildirdi ki, aqrar sığorta bazarının inkişafını istəyiriksə, effektiv işlək mexanizm yaradılmalıdır: "Elə etməliyik ki, büdcədən ayrılan vəsaitin 90 faizi sığorta şirkətlərində qalmasın, bu vəsaitin fermerlərə getməsinə nail olmalıyıq". Deputatın sözlərinə görə, qanun layihəsi İspaniya modeli əsasında hazırlanıb, həm də Türkiyə təcrübəsi əsas götürülüb: "Ancaq Azərbaycanda fermer təsərrüfatlarının əksəriyyəti xırda təsərrüfatlardır. Ona görə də sığorta mexanizmi elə qurulmalıdır ki, sığortaçı ilə sığortaolunan arasında inamsızlıq aradan qalxsın". **Ə.Məsimli bildirdi ki, kənd təsərrüfatı riskli sahə olduğu üçün sığorta şirkətləri bunda maraqlı olmayacaq:** "Buna görə də dövlətin dəstəyinə ehtiyac var. Komitədə müzakirə zamanı məlum oldu ki, 3 il ərzində ümumilikdə 30 milyon manata qədər vəsaitə ehtiyac olacaq. Hər il üçün 10 milyon manat dövlət üçün böyük vəsait deyil. Ona görə də belə dəstək lazımdır. Ancaq qanun layihəsində sığortaçının, sığorta edilənin vəzifəsi aydın göstərilməlidir. Aqrar sığorta ilə əlaqədar iki qurumun - iadəredici qurumun və vasitəçi orqanun yaradılmasına nə ehtiyac var?". Ə.Məsimli qeyd etdi ki, əgər kəndliyə birinci il dəyən zərər obyektiv qiymətləndirilib ödənilməyəcəksə, ikinci il kəndli o torpağı əkməyəcək.

**Aqrar komitənin sədri Eldar İbrahimov** deputatların səsləndirdiyi fikirlərin qarşılığında dedi ki, qanun layihəsi Prezident Administrasiyasından gəldiyi üçün ilk oxunuşda ona düzəliş edilməsi mümkün deyil. Komitə rəhbəri növbəti müzakirələrdə əsaslı təkliflərin Prezident Administrasiyası ilə məsləhətləşməklə nəzərə alına biləcəyini istisna etmədi.

**Müzakirələrdən sonra qanun layihəsi ilk oxunuşda qəbul edildi.**

**Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019



# Köhnə filmin nümayişi - sonu yenə eyni cür bitəcək

Xalid KAZIMLI

**Xüsusi olaraq monitorinqini aparmamışam, amma əminliklə iddia edə bilərəm ki, son 24 ildə mahalbazlığa qarşı məndən çox yazan olmayıb. Hətta bir ara mənim kimi yazanlara yaxşı bir ad da qoymuşdular: "Antiregionçu"... (Bu, nədən damğa kimi istifadə olunurdu, bu gün də anlamış deyiləm - mahalbazlığa, tayfabazlığa qarşı olmaq normal və vacib idi axı).**

Bir ara yerlibazlıq edənlərlə ona qarşı olanların münaqişəsi çox şiddətlənmişdi. Bu ixtilafın ən pik vaxtı 1998-2003-cü illər arasında olub. Ölkədə bu müstəvidə ciddi qarşıdurma, söz-söhbət vardı və əbəs yerə deyildi.

Məsələ onda idi ki, ölkənin mandatlı, möhürlü adamlarının tam əksəriyyəti qədim ölkəmizin iki mahalında doğulmuş kadrlardan ibarət idi - adi MİS rəisindən, məktəb direktorundan, xəstəxana baş həkimindən tutmuş ta deputatlara, nazirlərə qədər.

Bu da ondan irəli gəlirdi ki, etimad göstərilərək nazir təyin edilmiş şəxslər öz tabeçiliklərində olan vəzifəli şəxsləri (ilk pillədən ta yuxarıya qədər) öz eloğluları arasından seçirdi.

Bu xüsusda ən ötkəm hərəkət edən, ifrata varan şəxslərdən biri sabiq səhiyyə naziri Əli İnsanov idi. Bir dəfə jurnalistlər onun dövründə Səhiyyə Nazirliyinin nəzdində olan tibb müəssisələrinin rəhbərlərinin təvəllüd məkanlarına dair araşdırma aparmışdılar, məlum olmuşdu ki, əksəriyyəti nazirin eloğlulalırıdır.

Görünür, sabiq nazir öz eloğlularının daha sədaqətli olacağı qənaətindəymiş və "çörəyi özününkünə vermək" siyasəti yeridirmiş.

Təbii ki, sonradan onların bir çoxu Əli İnsanova sədaqətli olmadı, 2005-ci ilin oktyabrında Əli İnsanov həbsə alınanda, mühakimə ediləndə vaxtilə "irəli çəkdiyi", "çörək verdiyi" şəxslərin xeylisi öz dərilərinin hayına qaldı, "yiyə" dəyişdirdi. Amma şübhəsiz ki, gizli şəkildə sabiq nazirə sadiq qalanlar da oldu.

Bu baxımdan Əli İnsanov mahalbazlığın dadını-duzunu bilən, xeyrini-faydasını görən adamdır. İndi onun 13 il yarımlıq həbs həyatından sonra durub yenə yerlibazlıq etməsi, öz mahalında doğulanları bir köynək yaxın hesab etməsi anlaşılandır.

Ancaq vətəndən, vətən oğullarından danışarkən, "doğma ana", "başqa analar" söhbətinin yeri yoxdur.

Elə çıxır ki, eloğlular doğma anadan olan qardaşlar, bacılardır, amma o biriləri xalauşağıdırlar və ya tamamilə yaddırlar.

Bu təfəkkürlə heç bir siyasətçi ortaya çıxaraq lider ola, ölkənin hər yanında özünə tərəfdarlar qrupu toplaya bilməz. Ən yaxşı halda o, mahal lideri olacaq. O da ola bilsə. Çünki o "post"a başqa iddiaçılar da var. Onların bir çoxu yüksək vəzifələr tuturlar və özlərini Əli İnsanovdan zəif hesab etmirlər, həm də öz tərəfdarlarını (aydın məsələdir ki, nazir postunda olanların mütləq xüsusi tərəfdarlar, təəssübkeşlər qrupu olur) sabiq nazirə qapdırmaq fikrində deyillər.

Ancaq məsələnin başqa bir tərəfi də var. 2005-ci ildən sonra mahalbazlığın təsir dairəsinin daraldılması istiqamətində xəfif-xəfif aparılan siyasət bu günlərdə onunla nəticələnib ki, bir xeyli kadr iyerarxiya pillələrindən ələniblər.

İndi onlar öz sabiq "şef"lərinin ətrafında sıx birləşərək revanş etmək üçün fürsət qazanıblar. Köhnə əyyamların ləzzəti yaddan çıxan şey deyil. Onlar bir vaxtlar yaxşı vəzifələr tutur, dünyanın parasını "qazanırdılar", indi də fikirləşirlər ki, nədən o dövran yenidən olmasın. Bundan ötrü bir az fəal olmaq, önə çıxmış lideri hər cür dəstəkləmək lazımdır.

Əli İnsanov da əsasən bu elektorata ona görə müraciət edir və yuxarıda sitat gətirilən fikri bildirir ki, həm onların gücünə bələddir, həm də bu şəxslərin gələcəkdə "daha doğma" sayılacağı barədə mesaj verir. Onlar da uşaq deyillər, anlayırlar ki, zamanın gərdişiylə Əli İnsanov hakimiyyətə gəlsə, ən yaxşı vəzifələri özləri tutacaqlar, çünki onlar Əli İnsanov üçün doğmadırlar.

Durum budur. İndi ənənəvi müxalifət qüvvələri sıralarını sıxlaşdırmaq, əllərini gücləndirmək üçün Əli İnsanovu müxalifət lideri edərək, onun ətrafında birləşmək avantürasına gedəcəklərmi, getməyəcəklərmi, bəlli deyil.

**Amma onlar bu filmi bir neçə dəfə görüblər. Bir balaca ağlı olan hər kəs bir dəfə baxdığı və sonunun necə qurtardığını bildiyi filmə yenidən baxanda, filmin bu dəfə başqa cür qurtarmayacağını bilməlidir.**

---

**Bakıda "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təqdimatına həsr olunmuş dəyirmi masa keçirilib.**

# Qida təhlükəsizliyinə dair dövlət proqramı müzakirəyə çıxarıldı

## Nazir Muxtar Babayev: "Qida sahəsində kifayət qədər işlər və məlumatlandırma aparılmayıb"

"Yeni Müsavat" xəbər verir ki, təqdimat mərasimində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri İnam Kərimov, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, dövlət və hökumət nümayəndələri, millət vəkilləri və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə bildirilib ki, ölkəmizdə qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində Dövlət Proqramının qəbul olunması dövlətimizin başçısı tərəfindən qida təhlükəsizliyinə konseptual yanaşmanın və bu istiqamətdə strateji idarəetmənin təzahürüdür.

Tədbirdə çıxış edən **AQTA sədri Qoşqar Təhməzli** bildirib ki, agentliyin fəaliyyət göstərdiyi qısa müddət ərzində qarşıya qoyulmuş qısamüddətli və uzunmüddətli hədəflərin icrası istiqamətində bir sıra tədbirlər həyata keçirilib: "2018-ci ilin ilk altı ayı ərzində Agentliyin səlahiyyətlərinin icrasına başlamaq üçün bir neçə istiqamətdə hazırlıq və quruculuq tədbirləri həyata keçirilib, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional inkişaf və maddi-texniki bazanın formalaşdırılması, beynəlxalq əməkdaşlığın qurulması, sahibkarların və istehlakçıların yeni sistem haqqında maarifləndirilməsi istiqamətində işlər görülüb. Agentliyə verilən səlahiyyətlərin icrası üçün bir sıra qanunvericilik aktlarına müvafiq dəyişikliklər edilib. Habelə yeni normativ hüquqi aktlar qəbul olunub. Bu dövr ərzində mövcud qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə 10 qanun qəbul edilib, Azərbaycan Respublikasının prezidenti tərəfindən 22 fərman və 10 sərəncam imzalanıb. Bundan əlavə, Nazirlər Kabineti tərəfindən 17 qərar qəbul edilib. Eyni zamanda beynəlxalq təcrübəyə uyğun qida təhlükəsizliyi sisteminin hüquqi bazasının formalaşdırılması məqsədilə "Qida təhlükəsizliyi haqqında" Qanun layihəsi hazırlanıb və aidiyyəti dövlət orqanlarının rəy və təklifləri nəzərə alınaraq təkmilləşdirilib".

**Sədr bildirib ki, agentliyin maddi-texniki bazasının formalaşdırılması ilə yanaşı, qida təhlükəsizliyi sisteminin vacib komponenti olan laboratoriya infrastrukturu inkişaf etdirilib**: "Qısa müddət ərzində Bakıda və regionlarda müasir tələblərə cavab verən, qida təhlükəsizliyi, heyvan və bitki sağlamlığı sahəsində ən mürəkkəb analizləri aparmağa imkan verən 21 laboratoriya qurulub".

**Qoşqar Təhməzli qeyd edib ki, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" üzrə strateji baxış əhalinin sağlam və təhlükəsiz qida ilə tam təmin edilməsinə və bununla da qida mənşəli xəstəliklərin nəzərəçarpacaq dərəcədə azalmasına nail olmağı nəzərdə tutur**: "Eyni zamanda Dövlət Proqramında əsas məqsədlər qida təhlükəsizliyi sahəsində norma və standartların beynəlxalq tələblərə uyğunlaşdırılması, əhalinin təhlükəsiz və keyfiyyətli qida ilə təminatının yaxşılaşdırılması, qida təhlükəsizliyinin və keyfiyyətinin artırılması ilə rəqabətqabiliyyətliliyinin və xarici bazarlara ixrac potensialının artırılması, kənd təsərrüfatında istifadə olunan aqrokimyəvi maddələrə, bitki mühafizəsi vasitələrinə və baytarlıq preparatlarına nəzarət tədbirlərinin gücləndirməsi, habelə onlardan düzgün istifadəyə dair maarifləndirmə işlərinin aparılmasından ibarətdir. Sahibkarlarla əməkdaşlıq şəraitində qida təhlükəsizliyi üzrə qanunvericiliyin tələblərinə əməl olunması, ictimai nəzarət mexanizmlərinin səmərəli tətbiqi və istehlakçıların hüquqlarının qabaqcıl təcrübələr əsasında təmin edilməsi Dövlət Proqramının əsas məqsədlərindəndir".

Qeyd edilib ki, dövlət proqramı hazırlandıqdan sonra bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Birliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı kimi təşkilatlara göndərilib və onların rəyləri nəzərə alınıb. Eyni zamanda Azərbaycanda Amerika Ticarət Palatasının üzvlərinə göndərilib və ictimai müzakirəsi təşkil edilib.

**Çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, qida təhlükəsizliyi sahəsində Dövlət Proqramının qəbul edilməsi çox əhəmiyyətli hadisədir. Onun sözlərinə görə, qida təhlükəsizliyi birinci növbədə insanların sağlamlığı deməkdir**: "Digər tərəfdən bu sahə üçün düzgün standartları, bir sıra beynəlxalq təcrübənin ölkəmizə gətirilməsi istehlaka və ixraca böyük təkan verəcək. Çünki xüsusilə qeyri-neft və ərzaq məhsullarının ixracına aid MDB, Avropa, Asiya, Amerika məkanında müəyyən standartlar var. Müvafiq infrastruktur laboratoriya sertifikatikasiya sistemləri olmadan məhsulların bir sıra ölkələrə ixracında ciddi çətinliklərlə qarşılaşırıq. Bir sıra hallarda bu sertifikatları xaricdə əldə etmək ehtiyacları yaranır. Məhz belə bir proqramın yaradılmasında AQTA tərəfindən bir ildə həyata keçirilən uğurlu işlər nəticəsində sertifikasiya ilə bağlı bir çox məsələlər öz həllini tapıb".









**Çıxış edən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev** bildirib ki, qida sahəsində kifayət qədər işlər və məlumatlandırma aparılmayıb. Onun sözlərinə görə, qida sahəsində görüləcək işlərdə əsas prioritet insanların sağlamlığıdır: "Bizim bu sahədə görüləcək işimiz çoxdur. Proqramda məlumat bazası yaradılacaq. Bu baza ilə bütün özəl və dövlət qurumları birgə işləyəcək. AQTA və Kənd Təsərrüfatı Nazirliyi ilə birbaşa işçi qrupu yaradılacaq və işlər görüləcək. Qida təhlükəsizliyi, Baytarlıq və fitosanitar mövcud vəziyyət araşdırılacaq və bu sahədə problemlərin həlli istiqamətləri üzrə işlər görüləcək".

**Nazirin sözlərinə görə, balıq və su resurslarının qida təhlükəsiliyinə nəzarət edilməlidir**: "Bu sahə üzrə də böyük boşluqlar var".

❑ **Əli RAİS, "Yeni Müavat"**

**Foto: Elçin ƏKBƏROV**

**Fikrimcə, Əli İnsanov kimi şəxslərin siyasətlə məşğul olması qanunla qadağan edilməlidi. Hakimiyyətə iddia edən bu cür zehniyyət daşıyıcıları bir ölkəyə, bir xalqa yox, bütövlükdə bəşəriyyətə təhlükədi.**

# İnsanovun içindəki irin



**Onun "Amerikanın səsi"nə verdiyi video müsahibəsinə baxdıqdan sonra bu adamın nə qədər təhlükəli olduğuna əminlik daha da artdı.** Biz zatən İnsanovun sapına qədər regionçu, yerlibaz olduğunu bilirdik. Nazir işlədiyi dönəmlərdə bunu öz əməlləri və qərarlarıyla sübut edib. Düşünmək olardı, 14 ilə yaxın həbs həyatı onun baxışlarında müəyyən dəyişiklik edər. Azərbaycanın regionçuluqla yox, daha mütərəqqi tendensiyalarla inkişaf edəcəyini görər, qəbul edər. Amma və lakin... Adam içəri necə giribsə, hansı təfəkkürlə 13 il yarım türmə yatıbsa, eyni düşüncə ilə də ordan çıxıb. Hətta daha aqressiv formada yerlibaz olub.

O, müsahibəsində deyib ki, doğulduğu bölgədən olanlar ona doğmadı, qalanları yaddı. **Sitat:** "Mən heç yerdə regionçu olduğumu dilə gətirməmişəm. Mən ermənistanlı olduğumu da danmamışam. Ancaq güman edirəm ki, insan əvvəlcə öz anasını sevməlidir, sonra qonşu anaları. Belə olmayan insanları mən ikiüzlü və satqın adlandırıram. Bizdə gözəl bir məsəl var, "astını danan". Heç kəs gərək astını danan olmasın".

**Vurğuya diqqət edək**: "...insan əvvəlcə öz anasını sevməlidir, sonra qonşu anaları. Belə olmayan insanları mən ikiüzlü və satqın adlandırıram".

Əli İnsanov - öz tərzi ilə desək - ermənistanlı olmayan azərbaycanlıları qonşu xalq, yad millət adlandırır. Belə birinin siyasətdə irəli çıxmasına, mövqeyinin güclənməsinə dəstək vermək qəti olmaz. Bu, o qədər qorxulu bir xətdir ki, bu xəttin müəllifinin əlinə təkrar səlahiyyət keçsə, necə davranacağı indidən bəllidir.

Əli İnsanov Qərbi Azərbaycandan olan soydaşlarımıza bu cür çürük iddiaları ilə növbəti zərbəni vurmaqdadır. Onları digər bölgədən olan insanlarla qarşı-qarşıya gətirir, bilərəkdən, ya da fərqinə varmayaraq. Üstəlik, keçmiş nazirin bu fikirləri sözügedən bölgəni təmsil edən çoxsaylı iş adamlarına, vəzifəli şəxslərə, deputatlara etimadsızlıq yarada bilər. Əli İnsanov gərək bunları nəzərə alaydı.

İnanırıq ki, Qərbi Azərbaycan camaatı hər zamankı sayıqlığını qoruyacaq. Bu cür avantürist və zərərli fikirlərin müəlliflərini boykot edəcək. Çünki bu proseslər artan xətt üzrə inkişaf etsə, ən böyük zərbəni elə bu bölgənin insanları alacaq. Kimlərinsə, hansısa qüvvələrin əlində siyasi alətə çevrilməyə imkan vermək olmaz.

**Sabiq nazirin müsahibədə özünü ermənistanlı adlandırması da bir başqa rəzillikdi.** "Mən Qərbi azərbaycanlıyam", yaxud "mən azərbaycanlıyam" deyə bilərdi. Əvəzində "mən ermənistanlıyam" söylədi. Bununla da ölkəmizə, həmçinin tariximizə qarşı cəbhə açmış oldu. Hazırkı Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılması, əslində süni dövlət olması istər dövlət başçısı tərəfindən, istərsə də tarixçilərimiz tərəfindən dəfələrlə müxtəlif müstəvilərdə səsləndirilib. Əli İnsanov bu ifadəsi ilə ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın Ermənistan ərazisi olduğunu bir növ etiraf etmiş oldu.

Heç bir siyasi hikkə, şəxsi qəzəb hissi kiməsə bu cür mövqe tutmağa haqq qazandırmır. 50 milyonluq xalqı bir neçə yüz minlik (lap, bir milyonluq) bir icma kimi təqdim etməklə Əli İnsanov təkcə bu günümüzə zərər vurmur, həm də özünü tarix və gələcək qarşısında hədəfə çıxarır.

Yeri gəlmişkən, Əli İnsanovun siyasi züy tutanlarına da bəzi ismarışlarımız var. Çünki onların bugünkü dəvəquşu fəaliyyəti Ə.İnsanovun zərərli əməllərindən heç də geri qalmır.

Belə ki, Bakıda oturub, Yaxın Şərqin mağara təfəkkürlü diktatorlarının iqtidardan getməsini arzulayanlar, o diktatorlardan zehniyyətcə geri qalmayan İnsanovun siyasətdə irəliləməsinə, güclənməsinə kömək etmək üçün növbəyə dayanıblar. Harda olmasına baxmayaraq, diktatura rejimləri insanlığa təhlükədi. Yeni dünya düzəninə, 21-ci əsrin inkişaf dinamikasına əngəl törədir. Demirəm, Ə.İnsanov iqtidara gəlib, diktatura quracaq. Sadəcə bu cür adamlar ictimai-siyasi mühiti çirkləndirir, pis örnək olurlar.

**Və sonda. Azərbaycan prezidenti İlham Əliyev hər fürsətdə 50 milyonluq Azərbaycan xalqının prezidenti olduğunu deyir. İlham Əliyevin əslən Qərbi Azərbaycandan olduğunu hər kəs bilir. Buna baxmayaraq, heç vaxt siyasi fəaliyyətində bu amili qabartmadı, yalnız Qərbi azərbaycanlıların lideri olmaq iddiasında bulunmadı.**

**Əli İnsanov isə bütün karyerası boyunca öz mahalından olmayan azərbaycanlılara yad gözlə baxıb. Nə yazıq ki, bu cür də davam edir.**



**Azər AYXAN**
**"Yeni Müsavat" qəzeti baş redaktorunun 1-ci müavini**

# "MTN işi"nə görə həbs olunan generalların hansı əmlakları müsadirə olunub?

## Ali Məhkəmə sabiq şöbə rəisi Vüsal Ələkbərovun əmlakını qaytarması haqda qərar verib, digərlərinin də belə müraciət edəcəyi gözlənilir

**Ali Məhkəmə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) İstintaq Baş İdarəsinin İbtidai istintaq idarəsinin 2-ci şöbəsinin sabiq rəisi Vüsal Ələkbərov barəsində əmlakının müsadirə edilməsi hissəsini dayandırıb. Qeyd edək ki, V.Ələkbərov Bakı Hərbi Məhkəməsinin hökmü ilə 12 il müddətinə azadlıqdan məhrum olunub və əmlakı müsadirə edilib. Bakı Apelyasiya Məhkəməsi onun cəzasını 5 ilə endirib.**



Teymur Quliyev



Sübahir Qurbanov



Akif Çovdarov

**Ali Məhkəmənin mülklə bağlı qərarı hazırda "MTN işi" üzrə təqsirli bilinərək müxtəlif müddətlərə məhkəmə hökmü ilə cəzalandırılan, əmlakları müsadirə edilən digər "mahmudovçu"ları yada salır.**

Yada salaq ki, 2015-ci ildə "MTN işi" üzrə həbs edilən generalların və digər MTN-çilərin dəyəri 100 milyonlarla ölçülən əmlaklarının üzərinə həbs qoyulub.

Hazırda həbsdə olan MTN generallarının mal-mülkünün siyahısını təqdim edirik.

**General Sübahir Qurbanova məxsus əmlaklar:**

120.000 manat dəyərində Nəsimi rayonun, Mərdanov qardaşları küçəsi 94 "a" ünvanında yerləşən qeyri-yaşayış binası, 384.000 manat dəyərində Səməd Vurğun küçəsində yerləşən mənzil, 32.450 manat dəyərində Natavan küçəsində yerləşən qeyri-yaşayış sahəsi, 63.000 manat dəyərində qeyri-yaşayış sahəsi, 63.000 manat dəyərində Ü.Hacıbəyov küçəsi 18 ünvanında yerləşən mənzil, 60.000 manat dəyərində Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 19 ünvanında yerləşən mənzil, 282.000 manat dəyərində Novxanı kəndində yerləşən bağ evi, 48 000 manat dəyərində Novxanı kəndində yerləşən 0.10 ha torpaq sahəsi, 87.000 manat dəyərində Novxanı kəndində yerləşən 0,20 ha torpaq sahəsi, 130.000 manat dəyərində Novxanı kəndində yerləşən 0,30 ha torpaq sahəsi, 392.000 manat dəyərində Novxanı kəndində 0,385 ha torpaq sahəsi və üzərindəki tikililər, 1.200.000 manat dəyərində Digah qəsəbəsində yerləşən torpaq sahəsi və üzərindəki yanacaqdoldurma məntəqəsi, 100.000 manat dəyərində Masallı rayonu Qızılavar kəndində 0.0636 ha torpaq sahəsində yerləşən yanacaqdoldurma məntəqəsi və sair..

**General Teymur Quliyevə məxsus əmlaklar:**

Dəyəri 1.279.000 manat olan Nərimanov rayonunda fərdi yaşayış evi, dəyəri 21.100 manat olan Sumqayıt şəhəri, Ceyranbatan qəsəbəsi 3-cü küçə 39 ünvanında yerləşən 0,08 ha sahəsi, dəyəri 95.000 manat olan Gədəbəy rayonu, Slavyanka kəndində yerləşən 0.26 ha torpaq sahəsi və onun üzərində mövcud olan fərdi yaşayış evləri, 3.800 manat və 8.650 ABŞ dolları.

**Fizuli Əliyevə məxsus əmlaklar:**

306.000 manat dəyərində Qara-Çuxur qəsəbəsində daşınmaz əmlak, Qara-Çuxurda 568.000 və 371.000 manat dəyərində daşınmaz əmlaklar, dəyəri 121.500 manat olan Gəncədə qeyri-yaşayış binası, dəyəri 40.000 manat olan Gəncədə qeyri-yaşayış binası, dəyəri 1.110.000 manat olan Suraxanı rayonunda qeyri-yaşayış sahəsi, dəyəri 72.000 manat olan Nizami rayonunda mənzil, 71.000 manat olan Yasamal rayonunda mənzil, dəyəri 463.500 manat olan Yasamal rayonunda qeyri-yaşayış sahəsi, dəyəri 198.000 manat olan Novxanıda bağ evi (torpaq sahəsi ilə birlikdə) dəyəri 281.500 manat olan Yasamalda mənzil, dəyəri 63.000 manat olan Gəncədə qeyri-yaşayış sahəsi, dəyəri 180.000 manat olan Gəncədə qeyri-yaşayış binası, dəyəri 478.000 manat olan Gəncədə qeyri-yaşayış sahəsi, dəyəri 90.000 manat olan Gəncədə qeyri-yaşayış binası, dəyəri 742.000 manat olan Gəncədə 0,061 ha torpaq sahəsində yerləşən mülk, 451.000 manat olan Gəncədə daşınmaz əmlak, dəyəri 784.000 manat olan Bakıda 0,06 ha torpaq sahəsi və üzərində olan tikililər, dəyəri 1.873.000 manat olan Gəncədə əmlak kompleksi, dəyəri 275.000 manat olan Gəncədə ev, dəyəri 65.000 manat olan Gəncədə ev, dəyəri 498.000 manat olan qeyri-yaşayış binası, dəyəri 144.000 manat olan Mingəçevirdə qeyri-yaşayış binası, dəyəri 65.000 manat olan Gəncədə qeyri-yaşayış sahəsi, dəyəri 106.000 manat olan Gəncədə ev, dəyəri 86.000 manat olan Gəncədə ev və sairə...

**Natiq Alıyevə məxsus əmlaklar:**

Dəyəri 49.500 manat olan Sabunçunda mənzil, dəyəri 55.000 manat olan Sabunçuda mənzil, dəyəri 1.216.000 manat olan Badamdarda torpaq sahəsi və üzərində olan tikililər, dəyəri 784.000 manat olan Badamdarda torpaq sahəsi və üzərində olan tikililər, 2.374.000 manat daşınmazlar əmlaklar və sair...

**Zaur Məmmədova məxsus əmlaklar:**

Dəyəri 150.000 manat olan Nizami rayonunda mənzil, 50.000 manat dəyərində 2014-cü ilin istehsalı olan "Toyota Prado" markalı 99 HL 223 dövlət qeydiyyat nişanlı avtomaşın.

**Fərhad Atayevə məxsus əmlaklar:**

Dəyəri 95.000 manat olan Yasamalda mənzil, 18.000 manat dəyərində "Hyundai İX35" və digər maşınlar.

**Anar Şirəliyevə məxsus əmlaklar:**

Dəyəri 40.000 manat olan Qaraçuxurda fərdi yaşayış evi, 7.500 manat dəyərində "Mercedes C220 CDİ" markalı maşın və digər əmlaklar...

Əmlakı müsadirə edilənlər sırasında ləğv olunmuş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarov da vardı. Onun 33 milyon manat məbləğində əmlakı müsadirə olunub.

**Ali Məhkəmənin hakimi Fərhad Əliyevə yaxın zamanlarda yuxarıda adları qeyd olunan və olunmayan, əmlakları müsadirə edilmiş generalların, onlarla birgə ittiham edilənlərin də müraciət edəcəkləri gözləniləndir...**

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**



# Bol sulu çaylar

**Zamin HACI**
zaminhaci@gmail.com

"Əgər yaşın yeddini keçibsə, xoruz şeirini əzbərdən söyləmək o qədər də rəğbətlə qarşılanmırdı. Düzdür, bunu üzə deməsələr də, baxışlarından səndən razı qalmadıqları hiss olunurdu. Yaş yeddini keçibsə, gərək ya vətən, ya da ana haqqında bir şeir əzbərdən deməliydin"

*(Seymur Baycan, "Uşağın elçilikdə nə işi var?" hekayəsindən)*

**Açığı, mən heç ağlıma gətirməzdim Elmar müəllimin bu qədər nazir işləməyini. Hardasa başlıq gözümə dəydi, deyəsən elə bizim qəzetdə idi: "Elmar Məmmədyarovun 15 ili, iki rəy". Maraqlı müddətdir. Yəni, hardasa Elmar müəllim xarici işlər naziri qoyulanda orta məktəbə gedən uşaqlar onu qurtarıb, bambılı şairlər demişkən, həyatın qoynuna atılmağa hazırlaşırlar, ixtisas seçirlər, lakin güman edirəm, onların quş qoyduğu ixtisaslar arasında "xarici işlər naziri" peşəsi olmaz. Perspektivsiz seçimdir.**

Doğrusu, başlıqdakı "iki rəy" sözləri mənim pisimə gəldi, elə o üzdən bu qeydlərimi yazıram. Necə yəni iki rəy? Elmar müəllimin, o cümlədən başqa nazirlərimizin həyat və yaradıcılığı istiqamətində hansı ikili rəylərdən danışmaq olar? Bu nə ikiüzlü münasibətdir? Onların hər birinə ancaq bir rəy ola bilər, bu rəy isə dövlətçiliyimizin möhkəmlənməsi, Qarabağın azad edilməsi, dünya okeanında Azərbaycan titanik gəmisinin dalğaları yararaq mavi ənginliklərə varmasının tərənnümü yolunda müasir işıq dirəkləri ilə... Lənət şeytana. Mən bu işi heç bacarmadım da. Əvvəlini babat gətirirəm, axırı yaxşı qurtarmır. Burda əsas məsələ "razqom" deyil, onu hamı bacarır. Əsas ustalıq döngələri məharətlə burulmaq, yoluna çıxa biləcək tülkü və dovşanları basmamaq, sürüşməmək, sürüşsən də yıxılmamaq, ən sonda "tormoz"lamaqdır. Nə etmək olar, bizim qismətimiz deyilmiş. Qırxımızda öyrənməyin də mənası yoxdur. Qırx il nazir işləmək, bir gün müxalifət lideri olmaqdan yaxşıdır - bunu istəsəniz indiki dövrümüzün hansısa "Babək"inin adından afyorizm şəklində divara vurmaq olar.

Söz vaxtına çəkər, bugünlərdə Yaponiyada tarixi hadisə oldu, imperator Akihito hakimiyyətdən könüllü əl çəkib vəzifəsini oğlu Naruhitoya verdi. Bunun özü çox təəccüblü haldır ki, adam vəzifədən öz xoşuna əl çəkmişdir. Nazarbayev də belə eləmişdi. Ancaq Elmar müəllim vəzifədən könüllü əl çəksə, bəs bizim Qarabağ problemi üzrə sülh danışıqlarında adamımız kim olacaqdır? Buna soyub-soyub quyruğunda bıçağı sındırmaq deyirlər el arasında, nöşün ki, Elmar müəllimin idarəsi olduqca uğurlu diplomatik qələbələrə imza atmışdır. 15 il ərzində problemin həlli üçün 77 bəyanat, 134 qətnamə, 2456 saziş, 34578 memorandum, 9879854 dənə nota, 4567893 dənə kvota, 6667788 dənə camış potası kəsilərək həmsədrlərə qonaqlıq verilmişdir. Yeri gəlmişkən, danışıqlar prosesində Elmar müəllimdən də uzunömürlü bir dahi şəxsiyyət iştirak edir ki, biz onun nurlu simasını bu tarixi cızmaqaramızda mütləq yada salmalıyıq: ATƏT sədrinin Qarabağ davası üzrə xüsusi köməkçisi, səfir Anjey Kasprşik. Kasprşik münaqişə bölgəsinə o qədər gəlib-gedib, müşahidə aparıb ki, deyilənə görə artıq onda gözəl oxumaq qabiliyyəti yaranıb, növbəti muğam müsabiqəsinə qatılıb "Qızıl qaval" mükafatına əsas laureat olacaqdır. Kasprşik-in ilk dəfə Qarabağa gəlmə tarixi üzərində elmi mübahisələr mövcuddur. Misal üçün, erməni tarixçisi Mesrop Donquzyanın yazdığına görə Kasprşik eramızdan 30 min il qabaq Ağdam-Şuşa yolu ilə vilayətə varid olmuşdur. Rəhmətlik tarixçi alimimiz Ziya Bünyadovun "YAP-ın tarixi" əsərində isə Kasprşikin 1920-ci ildə 11-ci Qırmızı ordunun sıralarında, Yalamadan bölgəyə girdiyi yazılıb. Lakin Tarix İnstitutumuzun şefi Yaqub müəllim aprelin 1-də dərc elədiyi "Tarixi-aləmarayi-Anjey-Kasrpşik-cadukuni-məhşur" risaləsində bütün başqa versiyaları əminliklə darmadağın edir, Anjey müəllimin 1 milyon yarım il qabaq azıxantropla birgə Hadrut-Füzuli bölgəsində yaşamasına dair sarsılmaz sübutlar ortaya qoymuşdur.

Burada qeyd edim ki, bəziləri Hadrut toponiminin erməni mənşəli olmasını düşünərək kobud yanlışlığa yol verirlər. Qətiyyən belə deyildir. Hadrut - fars mənşəli sözdür, "həddi-rud", yəni çayla sərhədlənmiş, iki çayın arası deməkdir. Doğrudan da o bölgədən Quruçay, Köndələn, Çərəkənçay, Qozluçay kimi dağ çayları axıb Araza tökülməkdədir.

**Danışıqlar nə qədər uzansa, çayların suyu da artır.**

---



# İrəvanın məkrli gedişi - Azərbaycanın başı üzərindən...

## İşğalçı ölkə islam dünyasında özünə dayaq axtarır; **politoloq:** "Azərbaycan XİN-i bu barədə düşünməlidir"; **baş diplomatımız:** "Artıq erməni lobbisi də Ermənistanın gələcəyinə inanmır..."

**Sirr deyil ki, işğalçı Ermənistan 1.5 milyardlıq böyük islam dünyasında Dağlıq Qarabağ məsələsi və saxta "soyqırım" iddiası ilə bağlı özünə daim müttəfiqlər axtarır, erməni işğalı, uydurma "erməni iddiası"na yanaşmada müsəlman dünyasındakı ənənəvi yekdil, prinsipial mövqeyi öz xeyrinə dəyişməyə çalışır. Eyni zamanda, Azərbaycanla onun əsas silah tədarükçülərindən olan İsrailin arasını vurmağa cəhd edir.**

Hər halda faktdır ki, indiyədək islam ölkələrindən yalnız yarım-xristian Livan saxta "erməni genosidi"ni tanıyıb *(Yerdə qalanların hamısı xristian dövlətləridir)*. Dağlıq Qarabağla bağlı vəziyyət isə bir az da ermənilərin ziyanınadır. Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Özbəkistan kimi ölkələr Ermənistanı adında dövləti, ümumiyyətlə, tanımır.

*****

Konkret Qarabağ məsələsinə gəlincə, Ermənistana bu günədək yalnız qonşu İranla sıx yaxınlığa nail ola bilib. Daha doğrusu, bunda ən çox Tehran bəlli səbəblərdən *(Güney və İsrail amili, Bakını gərginlikdə saxlamaq istəyi və s.)* maraqlı olduğundan, iki tərəf isti münasibətlər qura bilib. Hərçənd, 57 müsəlman dövləti birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü kimi İran da təşkilatın Ermənistanı işğalçı kimi tanıyan sənədinə səs verib.

Az öncə Milli Məclisin spikeri Oqtay Əsədov Tehranda səfərdə olarkən İran rəhbərliyi *(prezident, parlamentin spikeri)* ölkəmizin ərazi bütövlüyünü tanıdıqlarını birmənalı şəkildə bildirdilər. Hərgah, İran və Ermənistan arasında yüksək çinli rəsmilər səviyyəsində qarşılıqlı səfərlər davam edir, blokada şəraitində olan işğalçı ölkə cənub qonşumuz üçün mühüm iqtisadi-ticari maraq kəsb eləməsə də, hansısa ikitərəfli sənədlər, anlaşmalar imzalanır - onların çoxu kağız üzərində qalsa belə.

Ermənistan onun da yaxşı fərqindədir ki, 57 islam ölkəsi BMT-də mühüm səsdir. Bundan əlavə, Azərbaycan 152 ölkəni birləşdirən Qoşulmamaq Hərəkatının üzvüdür və bu qurum da ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü tanıyır *(Qurumun növbəti ali toplantısı Bakıda keçiriləcək)*. Yəni Dağlıq Qarabağ məsələsi BMT-də müzakirəyə çıxarılarsa, bunun nəticəsinin necə olacağını proqnozlaşdırmaq çətin deyil.

Bu mənada İrəvanın islam-ərəb dünyanda bir növ, "kəşfiyyat"a çıxıb özünə dəstək, arxa-dayaq və dost axtarmaq səylərini artırması tam məntiqli görünür.

Əfsus ki, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) bu sırada məxsusi seçilməkdədir. Belə ki, "Yeni Müsavat"ın məlumatına görə, son vaxtlar iki ölkə rəsmiləri arasında təmaslar xeyli artıb. Tərəflər artıq əməkdaşlığın müxtəlif sferalarına aid onlarla anlaşma imzalayıb. Mayın 2-də isə, İrəvanda Ermənistan-BƏƏ hökumətlərarası komissiyanın ilk iclası başlayıb. BƏƏ-nin dövlət naziri, komissiyanın həmsədri Əhməd Əli əl-Saiqi və onun rəhbərlik elədiyi nümayəndə heyətini həm baş nazir Nikol Paşinyan, həm də prezident Armen Sərkisyan tərəfindən qəbul edib.

"Azərbaycanın Xarici İşlər Nazirliyi Abu Dabi və İrəvan arasında belə fəallığın səbəbləri barədə düşünməlidir". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri **"Atlas" Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** deyib. Onun sözlərinə görə, İrəvan BƏƏ-yə MDB və Avrasiya İqtisadi Birliyinin bazarlarına çıxmaq üçün işğalçı ölkənin imkanlarından yararlanmağı təklif edir.

"Əlamətdardır ki, BƏƏ bütün beynəlxalq məsələlərdə özünün əsas müttəfiqi olan Səudiyyə Ərəbistanı ilə vahid mövqedən çıxış edir. Nümunə kimi, İran, Yəmən və Suriya problemlərinə yanaşmanı göstərmək olar. Səudiyyə Ərəbistanı isə İrəvanın Azərbaycana qarşı işğalçılıq siyasəti üzündən Ermənistanla diplomatik münasibətlərə malik deyil və Qarabağ məsələsində birmənalı şəkildə Bakının mövqeyini müdafiə edir. O zaman necə ola bilər ki, Ermənistana münasibətdə BƏƏ və Səudiyyə Ərəbistanı fərqli siyasət aparır? Düşünürəm ki, bizim XİN bu məsələ üzərində düşünməlidir", - deyə ekspert əlavə edib.

*****

Ermənistan şübhə yox ki, islam aləminə, onun önəmli dövlətlərinə çıxış əldə eləməklə həm də özünün böhran içindəki iqtisadiyyatına yeni "nəfəs" vermək, bununla da ölkədən kütləvi köçü və yoxsulluğun səviyyəsini azaltmaq, orduya çağırışçı problemini həll etmək, yekunda Qarabağ danışıqlarında Azərbaycan qarşısında uğurlu bir mövqeyə sahiblənməyə çalışır. Təhlükə həm də bundadır. Odur ki, Azərbaycanın XİN-i xüsusilə diqqətli olmasına gerçəkdən ciddi səbəb var.

Təcavüzkar ölkənin islam dünyası hesabına blokada rejimini zəifləməsinə imkan verməmək olmaz.

"Ermənistanda bu gün böyük miqrasiya dalğası var. Ölkədə hökm sürən yoxsulluq insanların ölkənin gələcəyinə inanmaması onların dövləti tərk etməsinə gətirib çıxarır". Bu sözləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov V Ümümdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Bakıda keçirilən "BMT sistemində sülh naminə çoxtərəflilik və diplomatiyanın gücləndirilməsi" sessiyasında çıxışı zamanı deyib.

Azərbaycanın baş diplomatı maraqlı bir detala da diqqət çəkib. **Sitat**: "Təyyarədə olarkən erməni mətbuatı ilə fikir mübadiləsi apardım. Onlara sual verdikdə dedilər ki, diaspor bizə kömək edir. Ancaq onların diasporu belə ölkənin gələcəyinə inanmır".

**Deməli, elə eləmək lazımdır ki, bu inamsızlıq ildən-ilə güclənsin, Ermənistan, onun xalqı əmin olsun ki, BƏƏ ilə, İranla deyil, ilk növbədə iki müsəlman dövləti - Azərbaycanla, Türkiyə ilə anlaşmadan nicat tapa bilməyəcək...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Türkiyədə Zakir Həsənova maraqlı jest

## Hərbi ekspert: "Azərbaycan Ordusu öz əlində artıq milli silahını tutur..."

**İstanbulda keçirilən "IDEF-2019" sərgisi çərçivəsində müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev nazirliyin stendində Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüşüb. Görüşdə Y.Musayev nazirlik adından Azərbaycan Ordusuna 50 ədəd revolver tipli əl qumbaraatanı hədiyyə edildiyini bildirib. Hədiyyə olunan əl qumbaraatanlarının nümunəsi general-polkovnik Zakir Həsənova təqdim olunub.**

Türkiyədəki sərgidə iştirak edən hərbi icmalçı Ramil Məmmədli məsələ ilə bağlı "Yeni Müsavat"a dedi ki, Azərbaycanda









müdafiə sənayesi son 10 ildə sözün əsl mənasında inkişaf yolunu keçib: "Bu inkişaf da Azərbaycan Silahlı Qüvvələrinə dəstək məqsədi daşıyıb. Yəni arxa cəbhə rolunu oynayan müdafiə sənayesi kompleksi ordunun rahat şəkildə döyüş aparmaq, hərbi arsenalını gücləndirmək üçün çox vacib məqamlardan biridir".

**Onun sözlərinə görə, müdafiə sənayesi güclü olmayan ölkənin ordusu heç zaman güclü ola bilməz:** "Azərbaycan ordusunun üzərinə böyük məsuliyyət düşür. Ölkəmizin ərazisinin bir hissəsi işğal altındadır. Bu baxımdan müdafiə sənayesi kompleksi əsaslı şəkildə öz atıcı silahlarının imkanlarını və növlərini artırmaqla məşğuldur. Bu günədək Azərbaycan kiçikçaplı atıcı silahlar istehsal edirdisə, artıq iriçaplı qumbaraatanların istehsalı həyata keçirilir".

**Ekspertə görə, müdafiə nazirimizə belə bir jestin edilməsinə bu mənanı vermək olar ki, müdafiə sənayesi kompleksimiz ordunun arxasındadır:** "Bu gün çoxsaylı dövlətlər digər ölkələrdə istehsal olunan silahlardan istifadə edirlər. Amma Azərbaycan ordusu öz əlində milli silahını tutur, öz istehsal etdiyi silahlarla xidmət edir. Bu silahlar həm kiçikçaplıdır, həm də qumbaraatan və minaatanlardır. Həmçinin pilotsuz uçuş aparatlarını qeyd etmək olar. Ən uğurlusu odur ki, Azərbaycan iri aviasiya bombalarının istehsalını həyata keçirir. Zakir Həsənova edilən hədiyyə bir sıra ölkələrə, əsas da Ermənistana bir mesajdır ki, Azərbaycanın müdafiə sənayesi kompleksi ordunun təchizatını həyata keçirmək gücündədir".

**R.Məmmədli sərgi barədə də məlumat verdi:** "İstanbulda keçirilən bu sərgi sayca 14-cüdür. Türkiyə belə sərgiləri təşkil etməkdə artıq ixtisaslaşıb. Qardaş ölkədə 400-ə yaxın müxtəlif təyinatlı hərbi sənaye müəssisələri fəaliyyət göstərir. Dünyanın 3-4-cü ordusunu təmin etmək üçün Türkiyənin hərbi sənayesi tam olaraq səfərbər vəziyyətdədir. Bütün təyinatlar üzrə istehsallar həyata keçirilir. Belə bir ölkədəki sərgidə müdafiə sənayesi kompleksimizin iştirak etməsi, öz məhsullarını nümayiş etdirməsi böyük uğurdur. Artıq neçənci dəfədir ki, bu sərgidə Azərbaycan öz məhsullarını təqdim edir. İndiki sərgi isə daha uğurlu keçdi. Sərgidə ölkəmizin böyük bir stendlə iştirak etməsi, Türkiyə və başqa ölkələrin bu stendimizdən reportajlar hazırlaması sadəcə, qürurvericidir. Biz 15-20 il öncə bu sözləri söyləyə bilmirdik. Amma bu gün silahlarımızı göstərə biləcək səviyyədəyik".

❑ **C.ABBASLI,**
**"Yeni Müsavat"**

# Ağ Evin anti-müsəlman mövqeli rəhbərləri - ilginc səbəb

## Əhəd Məmmədli: "ABŞ daha demokratiya şüarları ilə örtünməyə ehtiyac duymur"

**ABŞ-ın son 3 prezidenti - Corc Buş (kiçik), Barak Obama və Donald Trampın dönəmində müsəlman dünyasında yaşanan təlatümlər təzə məsələ deyil. 2000-ci ildə C.Buşun hakimiyyətə gəlişindən sonra özünü göstərən bu mövqe hazırda Tramp tərəfindən davam etdirilir.**



C.Buş Ağ Evin sahibi olduğu ilk dönəmdə ABŞ Əfqanıstan və İraqa hərbi müdaxilə elədi. Hazırda hər iki ölkə viran qalıb. B.Obama dövründə isə Tunis, Liviya, Suriya və Yəməndə demokratiya pərdəsi altında ssenarilər hazırlandı. Nəticədə "Ərəb baharı" adlanan bu proseslər 4 müsəlman ölkəsi üçün fəlakətlə nəticələndi, minlərlə insan həyatını itirdi. Tramp da özündən əvvəlki iki prezidentin mövqeyini davam etdirir. Bütün bunların nədən qaynaqlandığı yönündə fərqli mövqelər var.

**Politoloq Əhəd Məmmədli** burada təsadüfi heç nə görmür: "Tramp sağ mühafizəkar bir siyasətçidir. Respublikaçı olduğunu da əlavə etsək, onun bu tavrında təsadüfi heç nə yoxdur. Son dönəmlər Amerika dünyada hegemonluğunu itirməkdədir. Bu vəziyyət ABŞ-ı daha da qıcıqlandırır və artıq Vaşinqton əsl mahiyyətini gizlətməyərək iç üzünü göstərməyə başlayıb. Məsələn, son vaxtlar Amerikanın Türkiyə və Venesuelayla münasibətlərinə baxaq: açıq-aşkar hədə-qorxu, şantaj etməyə başlayıblar. Hərbi təcavüz mesajları verməkdən belə çəkinmirlər. Yəni artıq demokratiya şüarları ilə örtünməyə ehtiyac duymurlar. Bu vəziyyət də dünyanın ən nəhəng demokratiyasını ifşa edir, əsl simasını göstərir. ABŞ-ın müsəlmanlara münasibətinə gəldikdə isə, bu dövlət protestantlar və yəhudilər tərəfindən birlikdə qurulub, inkişaf etdirilib. Protestant-yəhudi ittifaqı isə müsəlmanların ən təhlükəli düşmənləridir. Protestant-yəhudi ideoloji dueti istər klerikal, istərsə də, sekülyar bütün rəqib ideologiyaları, əqidələri, dünyaya baxışları sıradan çıxarıb özlərinə tabe etməyə bacardı. Ram olunmayan bircə islam ideologiyası qalıb. Türkiyəni çıxmaq şərti ilə müsəlman ölkələrinin hamısını, demək olar ki, ram ediblər. Amma islamı bir ideoloji kimi hələ də işğal edə bilməyiblər, bilməyəcəklər də. Qardaş Türkiyə də dünənə kimi ram olunmuşlar siyahısında idi. AKP iqtidara gələndən sonra vəziyyət kardinal şəkildə dəyişdi. Ona görə Türkiyə dünyanı idarə edənlərin hədəfindədir. Türkiyə uğrunda savaş davam edir. Müasir dünyada iki ideologiya, yaşam tərzi qalıb və bunlar bir-birləri ilə amansız savaşa giriblər. Bunlar Roma hüququ və İslam hüququdur. Roma hüququ dünyada bütün dinləri özünə tabe etdirdi, özündə əritdi, bir İslamdan başqa. Son İslam xilafəti Osmanlı çökdürüləndən sonra Qərb İslamı hərbi cəhətdən işğal etsə də, ideoloji cəhətdən işğal edə bilmədi. Kommunizm ideologiyası da Roma hüququnun bir uzantısıdır, lakin o uzantını belə kapitalist Qərb özünküləşdirdi. İslamla isə bacaramadılar ki, bacaramadılar. Bax, Trampın həmin bu anti-İslam ritorikası, siyasəti həmin o qeyd etdiyim böyük savaşın təzahüridir".

❑ **CAVANŞİR,**
**"Yeni Müsavat"**



# "Biz sona yaxınlaşırıq" - Avropa İttifaqının səfiri

## Aİ ilə Azərbaycan arasında sazişin nə vaxt imzalanacağını səfir də bilmir

**"Azərbaycanla Avropa İttifaqı arasında danışıqlar prosesi bitən kimi sənəd imzalanacaq və bu dəqiq, hərtərəfli anlaşma bizim gələcək əməkdaşlığımızın yeni əsası olacaq". Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Kestutis Yankauskas BBC News Azərbaycancaya belə deyib. Kestutis Yankauskas Azərbaycanla Aİ arasında imzalanması gözlənənilən sazişin detalları barədə danışmasa da, texniki işlərin tez bitirilməsi üçün səy göstərdiklərini bildirib: "Proses gedir, biz sona yaxınlaşırıq. İşləyirik ki, bu anlaşma imzalansın. Hələliksə, danışıqlar prosesi davam edir. Sazişin nə vaxt imzalanmasına dair hazırda heç bir təxminim yoxdur. Azərbaycan indiyədək qarşısına qoyulan öhdəliklərə əməl edib, hələ də buna çalışır. Düşünürəm ki, bizim əməkdaşlığımız buna nail olmağa gətirib çıxarıb. Biz indiyə kimi edilmiş işlərdən razıyıqmı? Bəli. Daha yaxşı ola bilərdimi? Bəli. Gələcəkdə biz daha yaxşı etməliyikmi? Bəli".**

Azərbaycanla Aİ arasındakı öncəki anlaşmanın tarixinin 90-cı illərdə başladığını xatırladan Yankauskas, anlaşmanın həmin vaxtların reallığını əks etdirdiyini, amma həmin reallığın indi də qüvvədə olduğunu söyləyib: "Həmin reallıq qüvvədədir, amma indi dünya daha çox irəli gedib və yeni əməkdaşlıq "yeni tənzimlənən əsaslar" tələb edir. Yeni anlaşma üçün isə Azərbaycana qarşı gözləntilər 2 il öncə irəli sürülüb".

Xatırladaq ki, 2017-ci ilin fevral ayından Avropa İttifaqı və Azərbaycan arasında yeni hərtərəfli sazişin imzalanması üçün danışıqlar gedir. Artıq sazişin 90 faizindən çoxu ilə bağlı razılığa gəldiyi bildirilir. Sazişin ilin sonuna kimi imzalanacağı gözlənilir.

Mayın 13-14-də isə Brüsseldə Şərq Tərəfdaşlığı çərçivəsində 10 illik əməkdaşlığın nəticələri və gələcəyi müzakirə ediləcək. Bu sammitdə də Avropa İttifaqı və Azərbaycan arasında yüksək səviyyəli danışıqların baş tutması nəzərdə tutulur.

Nəzərə çatdıraq ki, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramına daxil olan 6 ölkədən Ukrayna, Gürcüstan, Moldova Aİ ilə assosiativ saziş, Ermənistan isə hərtərəfli saziş imzalayıb, Azərbaycan da hərtərəfli saziş imzalamağa hazırlaşır.

*Bəs, assosiativ saziş ilə hərtərəfli sazişin fərqi nədir?*

**Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramının Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan üzrə koordinatoru Əvəz Həsənov** bildirdi ki, assosiativ razılaşma Aİ-nın "Şərq Tərəfdaşlıq" proqramı ilə tam hüquqlu əməkdaşlığı nəzərdə tutur. Onun əsas şərtlərindən biri ondan ibarətdir ki, ölkə Ümumdünya Ticarət Təşkilatına üzv olmalıdır, ölkə ilə iqtisadi əməkdaşlıq xaricində müqavilələr imzalanmalıdır, ölkənin gömrük, sərhəd idarə olunma sistemi, böyük korporasiyaların ölkəyə gəlişi və ölkədə iş qurması şəffaf olmalıdır, hamısı Aİ-nın tələblərinə uyğun təşkil olunmalıdır: "Təbii ki, "Şərq Tərəfdaşlığı" proqramı yaranan vaxtdan 6 ölkəyə eyni cür yanaşılırdı və heç bir ayrı-seçkilik yox idi. Onlar fikirləşirdilər ki, həm Avropa Birliyinin iqtisadiyyatı, həm də həmin ölkələrin iqtisadiyyatı üçün bu Assosiativ razılaşma imzalandıqdan sonra çoxlu sərfəli iqtisadi təkliflər ola biləcək. Xüsusən həmin "Şərq Tərəfdaşlığı" ölkələrinin məhsullarının Avropa bazarlarına çıxışı istiqamətində çox ciddi addımlar atılmalıydı. Bu prosesin özü gecikib. Baxmayaraq ki, bu gün Ukrayna, Gürcüstan, Moldova "Şərq Tərəfdaşlığı" proqramı ilə Assosiativ razılaşmanı imzalayıblar, ancaq onların özündə belə, o proses çox uzun gedir. Demək olmaz ki, bu gün Assosiativ razılaşmanı imzalayan ölkə ilə hərtərəfli əməkdaşlıq razılaşmasını imzalayan ölkə arasında ciddi bir fərq var. Elə bir ciddi fərq yoxdur. Çünki prosesin özü çox ləng gedir.

Azərbaycan isə strateji əməkdaşlıq haqqında razılıq imzalamaq istəyir. Təxminən Avropa ittifaqının Rusiya ilə imzaladığı razılaşmaya yaxın bir razılaşma nəzərdə tutulur. Çünki Azərbaycan yeganə "Şərq Tərəfdaşlığı" proqramı ölkəsidir ki, Avropa İttifaqı ilə razılaşma imzalamaqla yanaşı, eyni zamanda enerji təhlükəsizliyi ilə bağlı Avropa İttifaqı ilə ayrıca sənəd imzalayıb. Yəni Avropanın enerji təhlükəsiziliyi prosesində Azərbaycanın üstün rolunu və eyni zamanda öhdəliklərini göstərir.

Avropa İttifaqı "Şərq Tərəfdaşlığı" proqramının 4 əsas prinsipi var, Azərbaycan onların heç birini kənara atmayıb. Yəni birinci əsas bənd insan hüquqları, demokratiya və yaxşı idarəetmə ilə bağlı bənddir. Mən də Avropa İttifaqının əməkdaşları ilə görüşlərimdə onlar etiraf edirlər ki, heç kim o bəndi razılaşmadan çıxarda bilməz. Ümumiyyətlə, bu barədə söhbət gedə bilməz. Ancaq əsas qırmızı xətt enerji təhlükəsizliyidir. Yəni bu, həm Azərbaycan, həm də Avropa İttifaqı üçün önəmlidir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

# Dövlət Departamentinin nümayəndəsi müxalifətlə görüşmədi

## Fındıqçılıqla maraqlanmağa isə iki gün ayırdı

**ABŞ dövlət katibinin köməkçisinin müavini Corc Kentin 3 günlük Bakı səfəri başa çatıb. Səfərin sonunda amerikalı diplomat Bakıda brifinq keçirib. Corc Kent brifinqə bu bəyanatla başlayıb: "Ümumdünya Mətbuat günü münasibətilə sizin peşəyə öz hörmətimi bildirmək istərdim. ABŞ hesab edir ki, Azərbaycan da daxil olmaqla, istənilən ölkəyə azad media lazımdır. Bilirik ki, burada həbsdə olan bir neçə jurnalist var. Ümid edirik ki, onlar azad olunacaq və bütün jurnalistlər sərbəst işləmək imkanları əldə edəcək. Azad medianın zonası genişlənir və bir gün "AzadlıqRadiosu" yenə Azərbaycana qayıdacaq".**

Səfərin detallarına toxunan Kent bildirib ki, Azərbaycanda üç gün ərzində ölkə prezidenti və XİN rəhbəri daxil olmaqla, rəsmi şəxslərlə görüşüb. ABŞ rəsmisinin sözlərindən belə məlum olub ki, müxalifət partiyalarının liderləri ilə görüşü olmayıb. Səfərinin böyük hissəsini fındıqçılığın vəziyyəti ilə tanış olmağa ayıran diplomatın müxalifətlə görüşə bir saniyə belə ayırmaması maraqlıdır.


Corc Kent

C.Kent iki günü Azərbaycanın şimalında Xaçmaz rayonunda keçirib, USAİD-in kənd təsərrüfatında layihəsi ilə tanış olub, fermerlərlə görüşüb. C.Kentin sözlərinə görə, kənd təsərrüfatı sahəsində əməkdaşlıq ABŞ və Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsi üçün istiqamətlərdən biridir. Onun fikrincə, bu zonada meşə fındığının istehsalına diqqət yetirilməsinin fermerlər üçün etibarlı gəlir mənbəyi kimi böyük əhəmiyyəti var və Azərbaycan üçün də ixrac baxımından əhəmiyyət kəsb edir.

**Politoloq Məhəmməd Əsədullazadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, Corc Kentin brifinqdə mətbuat azadlığı və "AzadlıqRadiosu" ilə bağlı dedikləri Azərbaycanda media azadlığının vəziyyətindən razı olmadıqlarını, vəziyyətin düzələcəyini Azərbaycandan gözlədiyini dolayısı ilə dilə gətirilməsi sayıla bilər: "ABŞ strateji tərəfdaş olduğu ölkələrdə mətbuat və demokratiya sahəsində islahatların dərinləşməsini daima gündəmdə saxlayır. Düzdür, bu istiqamətdə bir çox hallarda bundan digər ölkələrə təzyiq rıçaqı kimi də istifadə edir. Hazırda qloballaşan dünyada demokratiya və söz azadlığı cəmiyyətin inkişafına impuls verən bir vasitədir. Azərbaycanın siyasi kursunun avrointerasiya olduğunu nəzərə alsaq ölkədə bu sahədə islahatların dərinləşməsi və mətbuat azadlığı strateji önəm daşımalıdır. Corc Kent də məhz Azərbaycandan bu sahədə olan müəyyən problemlərin həllini gözlədiklərini diplomatik şəkildə ortaya qoyub.

2011-ci ildən başlayan "Ərəb baharı" və MDB ölkələrində Qərbin QHT və mətbuat vasitəsi ilə hakimiyyətlərə təzyiq rıçaqlarını işə salması rəsmi Bakını bu istiqamətdə preventiv tədbirlər görməyə sövq etmişdi. Ölkədə "Azadlıq" və BBC kimi radioların yayımına məhdudiyyət qoyulması da bu tədbirlər sırasına aid idi. İndi görünür, ABŞ çalışır ki, "Azadlıq" radiosunun yayımı bərpa olunsun. Hesab edirəm ki, ABŞ ölkəmizdə bu sahədə problemlərin aradan qaldırılmasını yumşaq tezislə dilə gətirir. Ölkəmizdə bu sahədə problem olsa da, ümumi götürdükdə mətbuat sahəsində inkişaf var. Söz və fikir azadlığının Avropa İttifaqı ilə saziş bağlandıqdan sonra inkişaf edəcəyini istisna etmirəm".

**Politoloqun sözlərinə görə, ABŞ rəsminin açıqlaması göstərir ki, ölkədə mətbuat sahəsində islahatlar olacaq və bunun nəticəsində gələcəkdə "AzadlıqRadiosu"nun açılmasını da gözlədiklərini dilə gətirirlər:** "ABŞ diplomatı nəzərə çatdırmaq istəyib ki, Azərbaycanda mətbuat və informasiya siyasətində inkişafın olduğunu nəzərə alaraq mövcud olan bəzi problemlərin aradan qaldırılmasında maraqlıdırlar. "AzadlıqRadiosu" ABŞ Konqresi tərəfindən maliyyələşir, ABŞ siyasətinin təbliğatçı ruporudu. Görünür, bu radionun bundan sonra Azərbaycanda fəaliyyəti zərurəti yaranır. Hesab edirəm ki, rəsmi Bakı "AzadlıqRadiosu"nun yerli ofisini bir müddət bağlı saxlayacaq. Lakin bu, ABŞ-Azərbaycan münasibətlərinə təsir etməməlidir".

❑ **ETİBAR, "Yeni Müsavat"**

# Müxalifət yenə yeni blok yaradır

## Partiya sədrləri arasında danışıqlar gedir

**Azərbaycanın müxalifət düşərgəsində yeni blok yaranır. Yaxın vaxtlarda blokun elan ediləcəyi gözlənilir. ADP sədri Sərdar Cəlaloğlu "Hürriyyət"ə geniş müsahibəsində yeni birliyin yaranması istiqamətində Ümid Partiyasının sədri İqbal Ağazadə ilə və digər partiya sədrləri ilə görüşləri olub:**

"Bilirsiniz ki, son vaxtlar Azərbaycanda iki blok-Milli Şura və Azərbaycan Xalq Hərəkatı fəaliyyət göstərir. Və bu bloklar cəmiyyətə müəyyən bir siyasi yol xəritəsi təqdim ediblər. Biz bu blokların hər ikisinin fəaliyyətindən bir qədər kənarda dayanmışıq. Düzdür, Azərbaycan Xalq Hərəkatında müşahidəçi kimi iştirak edirik, lakin bilavasitə təşkilati işlərində iştirak etmirik. Qeyd edim ki, son vaxtlar Azərbaycan Xalq Hərəkatında parçalanma əmələ gəldi. Ümumiyyətlə, biz özümüz üçün bir şeyi müəyyənləşdirmək istəyirdik ki, Azərbaycan xalqı hansı ideyanın arxasınca gedə bilər. Çünki Azərbaycan Xalq Hərəkatı üsyanın, cəmiyyətdə radikal dəyişilmələrin tərəfdarı kimi çıxış edir. Əli Kərimli və onun tərəfdarları isə Azərbaycanda dəyişilmələrin küçə demokratiyası ilə mümkünlüyünə xalqı inandırmaq istəyir, bu istiqamətdə cəhdlərə çağırırlar. Lakin görürük ki, xalq Milli Şuraya və Azərbaycan Xalq Hərəkatına kütləvi şəkildə qoşulmur, onlara ciddi dəstək vermir. Bu səbəbdən də fikirləşdik ki, xalqa yeni alternativ yol təklif edək, baxaq görək, bəlkə bu yolla gedə bilərik. Yəni məşhur bir kəlamda deyildiyi kimi "Demokratiyada çarələr tükənməz". Ona görə də demokratiyanın bizə verdiyi imkanlardan istifadə edərək yeni təkliflə çıxış edirik. Belə ki, əgər əhalinin böyük çoxluğu xalq hərəkatı istiqamətində getmirsə, eyni zamanda Əli Kərimlinin mitinq taktikası ətrafında birləşmirsə, o zaman bəlkə xalq dinc demokratik islahatlar yolu ilə ciddi dəyişilmələri istəyir. Odur ki, bu məsələləri müzakirə etdik və belə bir qənaətə gəldik ki, xalqa üçüncü bir yol təklif edək və bizim kimi düşünən siyasi qüvvələrlə bu yolda birgə hərəkət edək".




**S.Cəlaloğlu bloku niyə məhz İqbal Ağazadə ilə blok yaratmağa çalışdıqlarından danışıb:** "İqbal bəylə bu məsələni başlatmağımızın bir əsası var. Çünki onunla uzun müddət bir blokda olmuşuq, bir-birimizi kifayət qədər yaxşı tanıyırıq və ideyalarımız da üst-üstə düşür. Görüş zamanı da məhz bu məsələləri müzakirə etdik. Eyni mövzu ilə bağlı artıq Doğru Yol Partiyası təşkilat komitəsinin sədri Kərəmət Salayevlə də görüşümüz olub. Gənc, yeni təşəkkül tapmağa başlayan partiyadır. Bəlkə də ölkənin siyasi həyatında bir çox adam hələ onu tanımır, lakin həddən artıq perspektivli və Azərbaycan gerçəkliyinə cavab verən, kifayət qədər ideoloji hazırlığı olan şəxsdir. Eləcə də bu qəbildən olan digər qüvvələri, Azərbaycan Xalq Hərəkatına qoşulmayan, Əli Kərimlinin apardığı siyasi xətdə təmsil olanmayan qüvvələri bir araya gətirərək üçüncü bir yolun başladılması qənaətinə gəlmişik. Biz bunu bir blok şəklində nəzərdə tutmuşuq. Ümid edirəm ki, qısa müddətdə yeni siyasi blok təsis olunacaq və biz fəaliyyətimizə başlayacağıq.

Biz fəaliyyətimiz zamanı ölkədə konkret hansı islahatlar və hansı ardıcıllıqla getməlidir, islahatları Azərbaycanın müstəqilliyi və suverenliyinə ziyan vurmadan necə aparmaq olar, xalqı necə bu islahatlara cəlb etmək olar və sair istiqamətlərdə olan səyləri davam etdirmək niyyətindəyik. Məqsədimiz odur ki, hökumətə konkret islahatlarla bağlı təkliflər verək, yol xəritəsi göstərək, eyni zamanda ideyalarımızı cəmiyyətə yayaq və bu yolla tərəfdarlarımızın sayını artıraq".

**ADP sədri blokda təmsil olunmaq üçün demək olar ki, bir çox partiyalarla danışıqları olub:** "Şəxsən mən Azərbaycan Xalq Hərəkatında olan partiyalarla danışıqlar aparmışam. Qənaətimə görə, həmin adamlar o blokun fəaliyyətinə bir o qədər də inanmırlar və yaxud da perspektivini görmürlər. Həmin adamlarla müzakirələr aparmışıq. Lakin ciddi nəticə, müsbət cavab almamışam. Bəziləri deyib ki, biz sonradan qoşularıq, bəziləri isə qeyd ediblər ki, indiki məqamda seçdiyimiz yoldan dönə bilmərik. Yəni hərə ortalığa bir səbəb qoyub. Lakin biz Ümid Partiyasının sədri İqbal bəylə, o cümlədən Doğru Yol Partiyası təşkilat komitəsinin sədri Kərəmət bəylə bu barədə razılığa gəlmişik. Bir neçə nəfər də var ki, onlarla da prinsipial olaraq razılığa gəlmişik, ancaq hələlik cəmiyyətə təqdim etmək baxımından müəyyən danışıqlarımız gedir. Danışıqlar həll olunsa, o zaman 3-4 qüvvə bir yerdə yeni siyasi blok yaradıb birgə fəaliyyət göstərəcəyik".

**Sərdar Cəlaloğlunun "Azərbaycan Xalq Hərəkatı üsyanın, cəmiyyətdə radikal dəyişilmələrin tərəfdarı kimi çıxış edir" fikriləri ilə bağlı AXH-nin təsisçisi İsgəndər Həmidovun mövqeyini öyrəndik. O, bildirdi ki, AXH-nin təsis yığıncağı yanvarın 26-da məhz ADP-nin qərargahında keçirilib. Sərdar Cəlaloğlu üsyan tərəfdarı olan, üsyan çağırışı edən bir təşkilata öz qərargahında tədbir keçirməyə şərait yaratmazdı. Sərdar bəy ona görə şərait yaratmışdı ki, AXH ölkədə demokratiya qurmaq uğrunda demokratik mübarizənin tərəfdarıdır, üsyan və güc yolu ilə mübarizənin tərəfdarı deyil:** "Sərdar bəy ola bilsin ki, AXH-nin başqa hansısa təşkilatla səhv salıb. Çünki AXH-nin nə əsasnaməsində, nə çağırışlarında, nə qəbul etdiyimiz bəyanatlarda heç vaxt üsyana çağırış olmayıb. AXH dinc demokratik mübarizənin tərəfdarıdır və demokratiyanın demokratik mübarizə yolu ilə bərqərar olmasını istəyir".

❑ **E.SEYİDAĞA, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019



# Azərbaycan yeni silahlar alacaq, düşmən isə ümidini Rusiyaya bağlayıb

## Sülh danışıqlarında durğunluq hərbi amili önə çıxarıb; **alman politoloq:** "Qarabağ məsələsində Paşinyan əvvəlki hökumətin xəttinə qayıdıb..."

**Azərbaycan və qardaş Türkiyə arasında növbəti birgə hərbi təlimlər başa çatdı. Təlimlər zamanı həmişəki kimi, hərbi arsenalımıza daxil olmuş bəzi yeni növ silahlar da sınaqdan çıxarıldı. Aydındır ki, Azərbaycan müasir silah-sursatı yalnız təlimlərdə sınamaq və ya hərbi paradlarda nümayiş etdirmək üçün almır. Əsas hədəf, əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunmasıdır.**





**Doğrudur, hələ ki, genişmiqyaslı hərbi əməliyyatlar üçün geosiyasi şərtlər tam məqbul hesab olunmur.** Azərbaycan ən əlverişli fürsəti gözləmək zorundadır. Ancaq ona kimi güclü ordumuz, düşmən üzərində üstün hərbi qüdrətimiz Dağlıq Qarabağa dair sülh danışıqları masası arxasında işğalçı tərəfə mühüm təzyiq vasitəsi olaraq qalacaq. Onun başı üzərində "Domokl qılıncı" kimi asılı qalacaq. O anlamda ki, danışıqlar prosesi süni şəkildə uzanarsa, müharibə hər an alovlana bilər. Bakı həm də bu səbəbdən silahlı qüvvələrmizin hərbi və hərbi-texniki potensialının, şəxsi heyətin döyüş hazırlığının artırılmasına daima xüsusi önəm verir.

****

"Azərbaycan yeni və müasir silahlar alacaq". Bunu müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib. İstanbulda keçirilən "İDEF-2019" XIV beynəlxalq müdafiə sənayesi sərgisində iştirak edən nazir sərgidə müasir silah və avadanlıqların nümayiş etdirildiyini qeyd edərək bildirib: "Biz bu silahların bir qismini istifadə edirik, bir qismini isə Azərbaycan Ordusunda sınağa götürəcəyik və müxtəlif döyüş şəraitində sınaqdan keçirəcəyik. Bununla bağlı müzakirələrimiz oldu, razılıq əldə etdik".

Hərbi nazirimiz onu da deyib ki, Azərbaycan hansı ölkədən silah alırsa, əvvəlcə onu ciddi şəkildə sınaqdan keçirir: "Bu sınaqlar 1-2 gün yox, ola bilsin, 6 ay, 1 il çəkir. Həmin silahları müxtəlif qoşun növlərində, fərqli hava şəraitində istifadə edib sınaqdan keçiririk, öz fikirlərimizi deyirik. Sonda ortaq bir fikrə gələndən sonra onu silahlanmaya qəbul edirik".

Müdafiə naziri Azərbaycan və Türkiyənin hərbi, hərbi-texniki, hərbi təhsil və bir sıra digər istiqamətlərdə həyata keçirdiyi birgə layihələrdən də danışıb. "Bizim qardaş Türkiyə ilə birgə geniş layihələrimiz var. Bu gün icraatda olan və planlaşdırılan layihələrimiz də çoxdur. Bu sahənin məxfiliyini nəzərə alaraq, mən onların hamısı haqda danışmaq istəmirəm. Yalnız onu vurğulamaq istəyirəm ki, bu gün Türkiyənin hərbi sənayesi güclü inkişaf edib və ən müasir texnologiyaları tətbiq edir. Təbii ki, Türkiyə öz təcrübəsini, nailiyyətlərini Azərbaycanla bölüşür. Bu da bizim ordunun güclənməsinə kömək olur", - deyə o əlavə edib.

*****

Azərbaycanın silah tədarükçüləri arasında Ukrayna da var. Yeri gəlmişkən, Ukraynanın "Ukroboronprom" dövlət müəssisəsi Azərbaycanın hərbi sursat proqramında iştirak edəcək. Bu barədə "Ukrobonoprom"un mətbuat xidməti məlumat yayıb (Virtualaz.org). Məlumatda deyilir ki, İstanbulda keçirilən "IDEF-2019" beynəlxalq hərbi sərgisi çərçivəsində müəssisənin baş direktoru Pavel Bukin Azərbaycanın müdafiə sənayesi nazirinin birinci müavini Yəhya Musayevlə görüşüb. Görüşdə artilleriya silahları sursatlarının ayrı-ayrı hissələrinin istehsalı ilə bağlı məsələlər müzakirə olunub.

"Ukrobonoprom"un istehsal üçün bütün lazımi texnologiyalara malik olduğu bildirilir. "Ukrobonoprom" həmçinin Azərbaycandan hərbi sursatların və yaxın məsafədən döyüş vasitələrinin alınmasına maraq göstərib.

Məsələ də ondadır ki, ərazisinin bir hissəsi işğala məruz qalan ölkə kimi Azərbaycan özünün yerli sənaye kompleksini də uğurla inkişaf etdirir. Bu isə ümidini yalnız ucuz Rusiya silahlarına, Moskvanın silah kreditlərinə bağlayan təcavüzkar Ermənistan üzərində daha bir mühüm üstünlüyümüzdür və şübhəsiz ki, müharibə zamanı öz sözünü deyəcək.

Hələliksə, Qarabağ danışıqlarında zahirən canlanma olsa da, nizamlama prosesində ciddi dönüşdən danışmaq, əfsus ki, mümkün deyil. Bu da erməni tərəfinin, onun yeni hakimiyyətin də əvvəlkilər tək ateşkəs rejimini süni surətdə uzatmaq cəhdi ilə birbaşa bağlıdır. Belə siyasətin Ermənistandakı hakim rejim üçün hansı ağır nəticələr vəd elədiyini isə 2016-cı ilin aprelində işğalçı orduya vurulun zərbə əyani göstərdi.

*****

"Dağlıq Qarabağ məsələsində Nikol Paşinyan hökuməti əvvəlki hökumətin xəttini təkrarlayır". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri "Vestnik Kavkaza" portalına açıqlamasında konflikt ətrafında son durumu şərh edən alman politoloq Xayko Lanqner söyləyib.

"Dağlıq Qarabağ münaqişəsinin dinc həllinə olan ilkin kövrək ümidlər iflas ola bilər. Paşinyan bu məsələdə də hələ ki, əvvəlki hökumətin xəttini təkrarlayır. Kompromis təkliflər yerinə, maksimalist tələblər irəli sürür - hansı təkliflər ki, indiyədək sülh səylərinin iflası ilə yekunlaşıb", - deyə o qeyd edib.

Alman ekspertin qənaətincə, Azərbaycanla olan Qarabağ konflikti hələ də Ermənistanda ilk növbədə daxili siyasi hədəflərə - rejimi sabitləşdirməyə və vətəndaşların diqqətini aktual sosial-iqtisadi problemlərdən yayındırmağa xidmət edir.

*****

Lakin bu, sonsuzadək sürə bilməz. Həm də o səbəbə ki, ermənilərin Nikol Paşinyanı inqilab nəticəsində hakimiyyətə gətirməsində əsas hədəfləri məhz öncəliklə sosial-iqtisadi problemlərin həlli və güzəranın yaxşılaşdırılması, yoxsulluğun azaldılmasıdır. Bu isə ötən bir illik zaman kəsiyi göstərdi ki, Qarabağ münaqişəsi çözülmədən, blokada rejimi aradan qalxmadan, iki əsas qonşu ölkə - Azərbaycan və Türkiyə ilə münasibətlər normallaşmadan mümkün olmayacaq. Hakimiyyətdə kim olur-olsun, mümkün olmayacaq.

**Bir azdan bu acı həqiqəti ermənilərin hamısı bir daha anlayacaq. Bu mənada Paşinyan əslində ermənilərin son ümid yeri, axırıncı şansıdır. Ancaq onun "sehrli çübuğu" yoxdur. Olmayacaq. Paşinyanın tək möcüzəsi yalnız Azərbaycanla Ermənistanın dil tapmasına nail olmaq, müharibə riskini aradan qaldırmaq ola bilər. Onun yolu da ki, çoxdan bəlli...**



# XİN-dən Qarabağ separtçısının Argentina səfərinə sərt reaksiya

**"Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma separatçı rejimin "nümayəndəsi"nin Argentinaya səfəri ilə bağlı erməni KİV-lərində yayılmış məlumatlar qanunsuz rejimin təşviqinə hesablanıb və özünü aldatmadan başqa bir şey deyil". Musavat.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva deyib.**

O, "erməni KİV-də qondarma separatçı rejimin "xarici işlər nazirinin" Argentinada görüşlər keçirməsi ilə bağlı məlumat yayılıb. Bunu necə qiymətləndirirsiniz" sualına belə cavab verib: "Qeyd etmək istərdim ki, Argentinanın erməni icmasının Buenos Ayres Universitetinin Hüquq fakültəsində təşkil etdiyi uydurma "erməni soyqırımı"na həsr edilmiş tədbirlərdə iştirak edən separatçı rejim nümayəndəsi Argentinada hər hansı ölkə rəsmisi ilə görüşə nail olmayıb. Bundan əlavə, Argentinanın "Erməni İnstitutları" adlı təşkilatı Argentina Xarici İşlər və Etiqad Nazirliyinin 24 aprel 2019-cu il tarixində dövlət qurumlarına ünvanladığı notanı dərc edərək öz dərin narahatlığını ifadə edib. Belə ki, nazirlik sözügedən notasında Argentinanın BMT Nizamnaməsinin 2-ci maddəsində əks olunmuş, digər dövlətin daxili işinə qarışmama və dövlətin ərazi bütövlüyünə hörmət prinsipinin suveren dövlətlər arasında münasibətlərin, həmçinin beynəlxalq sülh və təhlükəsizliyin fundamental sütunu hesab etdiyini və bu səbəbdən, Argentinanın öz müstəqilliyini elan etmiş "Dağlıq Qarabağ Respublikası" və ya "Artsax"ı beynəlxalq hüquq çərçivəsində müstəqil və suveren dövlət kimi tanımadığını vurğulayır. Bununla əlaqədar, Dağlıq Qarabağın "xarici işlər naziri"nin qəbul etməmək və onunla rəsmi görüşlər keçirməmək tövsiyə olunur. Göründüyü kimi, separatçı rejimin "nümayəndəsi" qanunsuz işğalçı rejimin beynəlxalq ictimaiyyət, o cümlədən Argentina tərəfindən tanınmadığının bu ölkəyə səfər edərək şəxsən şahidi olub. Eyni zamanda, bildirmək istərdim ki, həmin tarixlərdə Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzo ilk dəfə olaraq ölkəmizdə rəsmi səfərdə olub və keçirdiyi bütün görüşlərdə Argentinanın yuxarıda qeyd olunan mövqedən çıxış etdiyini və ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bəyan edib".

Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında nəşr olunur. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

# Azərbaycanda çoxdan gözlənən aqrar sığorta - iki nazirliyin ortaq layihəsində əsas hədəf

## Kənd Təsərrüfatı yanında agentliyin sədri Mirzə Əliyev: “Dövlətin bu prosesdə iştirakı daimi olacaq...”

**Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasında çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov aqrar sığortanın tətbiqinin vacibliyini önə çəkib. “Bu gün fermerlərimizi qayğılandıran digər məsələlərdən biri və yüksək diqqətinizə ünvanladıqları çoxsaylı xahişləri, həmçinin kiçik həcmli kreditlərə çıxışın asanlaşdırılması və təbii hadisələrə qarşı aqrar sığortanın tətbiq edilməsidir”, - deyə nazir bildirib.**

Doğrudan da, Azərbaycan müstəqillik əldə edəndən bəri aqrar sahədə sığorta sisteminin tətbiqi məsələsi müzakirə olunur. Müstəqil və xarici mütəxəssislər uzun illərdir dövlətin dəstəyi ilə aqrar sığorta mexanizminin tətbiqini tövsiyə edirlər. Son illərdə bu məsələ xeyli aktuallaşıb. 2016-cı ildə kənd təsərrüfatının inkişafına dair qəbul edilmiş strateji yol xəritəsində aqrar sığorta sisteminin yaradılması nəzərdə tutulur. Bu sahədə əsas addımlardan biri atılaraq, “Aqrar sığorta haqqında” qanun layihəsi hazırlanıb. Dünən Milli Məclisin plenar iclasında “Aqrar sığorta haqqında” qanun layihəsi I oxunuşda qəbul edilib.

Sənəd aqrar sahədə risklərin müştərək sığorta mexanizmi vasitəsilə sığortalanması ilə bağlı münasibətləri tənzimləyir, aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir. Qanuna əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları aqrar sığorta predmetləri üzrə təbiət hadisələri, o cümlədən təbii fəlakətlər, yanğın, qəzalar, yoluxucu xəstəliklər və zəhərlənmələr, vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu və nəhayət, üçüncü şəxslərin hərəkətləri kimi risklərin bir və yaxud bir neçəsindən sığorta qaydalarına əsasən sığortalanır.

Qeyd edək ki, qanun layihəsi Kənd Təsərrüfatı Nazirliyi və Maliyyə Nazirliyinin birgə məhsuludur. Layihənin əsas prinsipləri, Azərbaycanda tətbiq olunması təklif edilən aqrar sığorta modelinin mahiyyəti barədə suallarımızı **Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev** cavablandırıb. Agentlik rəhbəri ilə müsahibəni təqdim edirik:

***- Mirzə müəllim, Azərbaycanda aqrar sektorun hazırkı vəziyyətində sığorta sistemi bu sektor üçün nə deməkdir?***

- Azərbaycanda əhalinin təxminən yarısı kənd yerlərində yaşayır. Ölkə üzrə məşğul əhalinin təxminən bir o qədəri də kənd yerlərinin payına düşür. Bu baxımdan aqrar sahənin ölkə həyatında əhəmiyyəti çox böyükdür. Sığorta bir iqtisadi-maliyyə məhsuludur. Bu məhsulun olması kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxış imkanı deməkdir. Sığortanın olması aqrar sahəyə biznes marağını artırır, investisiyaları təşviq edir. Digər tərəfdən, aqrar sahədə sığortanın tətbiqi bu sahədə dayanıqlı inkişafı təmin edir, istehsalı artırır, dolayısı ilə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına dəstək verir. Ümumiləşdirsək, aqrar sığorta kənd təsərrüfatı üzrə maliyyə resurslarına çıxış imkanlarının təkmilləşdirilməsi, aqrar sahəyə biznes marağının artırılması və investisiyaların təşviqi və nəhayət, davamlı inkişaf və dayanıqlığın güclənməsi baxımından aqrar sığorta son dərəcə mühüm əhəmiyyət kəsb edir.

***- “Aqrar sığorta haqqında” qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Bu layihə hazırlanarkən hansı dünya ölkələrinin təcrübəsi nəzərə alınıb? Qanundakı əsas prinsiplər hansılardır?***

- Qanun layihəsi, bildiyiniz kimi, Kənd Təsərrüfatı Nazirliyi və Maliyyə Nazirliyi tərəfindən hazırlanıb. Layihə üzərində işləyərkən dünyanın bir çox qabaqcıl təcrübələri öyrənilib. Biz hansı ölkələrdə daha mütərəqqi aqrar sığorta sisteminin mövcud olduğunu müəyyənləşdirmişik: bunlar ABŞ, İspaniya, Türkiyə və İsraildir. Bu ölkələrdə tətbiq olunan mexanizmlər indiyədək heç vaxt iflasa uğramayıb. Bu ölkələr arasında biz nümunə olaraq İspaniya və Türkiyə modellərinin üzərində dayandıq. Türkiyədə bu model “TARSİM” adlanır, İspaniyada isə AGROSEGURO *(Birləşmiş Aqrar Sığorta Şirkətləri Birliyi)*. Hər iki model dövlət-özəl əməkdaşlığına əsaslanır.

***- Dövlət-özəl əməkdaşlığı necə olacaq? Bunun üçün hazırlanan mexanizm barədə məlumat verərdiniz.***

- Biz müştərək sığorta sisteminin yaradılmasını nəzərdə tuturuq. Bu sistemdə sığortaolunanlar yaradılacaq şirkətin sahibi olacaqlar. Burada sığortaçılardan yığılan vəsaitin çox olması, sığorta ödənişini etməmək kimi məsələlərə yer olmayacaq. Burada məqsəd ondan ibarətdir ki, kənd təsərrüfatı sığortası inkişaf etsin. Buna görə də müştərək sığorta modelini tətbiq etmək istəyirik. Burada əsas stimullaşdırıcı vasitə dövlətin bu modeldə iştirakıdır. Belə ki, aqrar sığorta üzrə dövlət qurumu yaradılacaq - bu, fond da ola bilər, agentlik də. Bu qurumun müxtəlif dövlət orqanlarının nümayəndələrindən ibarət himayəçilik şurası formalaşdırılır. Himayəçilik Şurasının rolu dövlətin bu sahəyə ayırdığı subsidiyaları tənzimləmək, eyni zamanda gələcəkdə sığorta haqlarının yığılması, onun maliyyə davamlılığının təmin olunması, dövlətin risklərinin tənzimlənməsindən ibarətdir. Eyni zamanda aqrar sığorta orqanının yanında bir idarəedici şirkət təsis olunur. İdarəedici şirkət fonddan *(və ya agentlikdən)* və prosesdə iştirak edəcək sığorta şirkətlərinin bərabər payı əsasında maliyyələşən açıq tipli səhmdar cəmiyyəti olacaq. “Sığorta haqqında” Qanuna əsasən Azərbaycanda sığortaçı yalnız ASC olmalıdır. İdarəedici şirkət fondla mülki müqavilə əsasında fəaliyyət göstərir.



“Sığorta aqrar sahəyə biznes marağını artıracaq, investisiyaları təşviq edəcək”

***- Özəl əməkdaşlığı hansı formada nəzərdə tutulur?***

- Özəl əməkdaşlığı iki istiqamətdə olacaq. Birincisi, idarəedici şirkətin səhmdarları özəl sığorta şirkətləri olacaq. Onlar satışla məşğul olacaqlar. Satdıqları sığorta məbləğindən onlar faiz əldə edəcəklər. Tutalım ki, hər 100 manatdan 10 faiz. Sığorta hadisəsi baş verdikdə isə idarəedici şirkətin cəlb etdiyi müstəqil ekspertlər qiymətləndirmə aparacaqlar. Bu ekspertlərin hava-iqlim şəraiti haqqında məlumatlara çıxışı olacaq. Yəni onların sığorta hadisəsinin *(yağış, dolu və sair)* baş verməsini bilmələri üçün harasa getmələrinə, yaxud fermerin müraciət etməsinə ehtiyac olmayacaq - bu məlumatlar elektron formada onlara veriləcək. Bundan sonra onlar hadisə yerinə gedib, elektron resurslar vasitəsilə sığorta hadisəsini qeydə alacaqlar. Bunun əhəmiyyəti ondan ibarətdir ki, sığorta hadisəsini qeydə alan sığorta şirkətinin nümayəndəsi deyil, müstəqil ekspertlər olacaq. Bu zaman artıq sığorta hadisəsinin qeydə alınmaması, yaxud dəyən zərərin düzgün qiymətləndirilməməsi kimi halların qarşısı alınmış olacaq.

***- Dövlət sığorta risklərinin qarşılanmasında necə iştirak edəcək?***

- Dövlət aqrar sığorta orqanı vasitəsilə sığorta risklərini öz üzərinə götürəcək. Təbii ki, dövlət bu risklərin hamısını öz üzərində saxlamayacaq. Bir hissəsini təkrar sığorta vasitəsilə yenidən özəl sektora ötürəcək. Bildiyiniz kimi, təkrar sığorta şirkətləri bütün dünyada geniş yayılıb. Bütövlükdə götürsək, Azərbaycanın tətbiq etməyə hazırlaşdığı əsas model TARSİM modelidir. Bu model dövlət-özəl tərəfdaşlığına əsaslanır. Eyni zamanda bu model könüllülük prinsipi əsasında fəaliyyət göstərir. Əsas fərqləndirici cəhətlərdən biri də mükafatlandırma və ziyana dəstək mexanizminin olmasıdır.

***- Bu model kənd təsərrüfatı istehsalçılarının maliyyə resurslarına çıxışına necə təsir göstərəcək? Bu sahədə gözləntiləriniz nədir?***

- Belə deyək də: təsəvvür edin ki, siz fermersiniz, getmisiniz sahəniz üçün kredit almağa. Amma sizin risklərinizi qiymətləndirəcək, gəlirinizi müəyyənləşdirəcək mütəxəssis tapa bilmirsiniz. Üstəlik, bank sizə kredit vermək istəmir. Bildiyiniz kimi, Azərbaycanda aqrar sahə ilə işləyən bank bazarı, bank mütəxəssisləri faktiki olaraq yox səviyyəsindədir. Ümumilikdə, aqrar sahənin özündə mütəxəssis çatışmazlığı var, o ki, ola maliyyə sahəsi. Maliyyə sektoru - banklar aqrar təsərrüfatlar üzrə sahəni təhlil etməyə çətinlik çəkir, bu sahədə müvafiq təcrübə və biliklər çox aşağıdır. Yəni aqrar istehsalçıya kredit verməsi üçün bank işçisinin həm maliyyə savadı olmalıdır, həm də kənd təsərrüfatı barədə bilikləri. Bununla yanaşı, kənd təsərrüfatı çox riskli sahədir - təsadüfi deyil ki, aqrar istehsalçılar bir çox hallarda “bizim işimiz Allaha qalıb” deyimindən istifadə edirlər. Burada əlbəttə, aqrar sektorda məhsul itkisinə gətirib çıxaran təbiət hadisələri nəzərdə tutulur: quraqlıq qədər həddindən artıq yağıntılar da məhsuldarlığa mənfi təsir edən amillərdəndir. Bundan əlavə, vəhşi heyvanların hücumu belə kəndlinin təsərrüfatına zərər vura bilər. Buna görə də aqrar sığorta olmadıqda banklar aqrar istehsalçılara kredit vermək istəmirlər. Sığorta olduqda banklar əmin olacaqlar ki, dövlət-özəl əməkdaşlığı şəraitində kəndlilər təsərrüfatlarına dəyən zərərin əvəzini ala biləcəklər. Yəni aqrar sığortanın tətbiqi bankların bu sahədəki risklərinin 80-90 faizini aradan qaldırmış olacaq. Bu isə aqrar istehsalçıların banklardan kredit alması asanlaşacaq, banklar bu sahəyə istiqamətlənəcəklər.

***- Bəs sığorta prosesində kənd təsərrüfatı istehsalçılarına dövlətin hansısa dəstəyi nəzərdə tutulurmu? Bilirik ki, Azərbaycanda ümumilikdə sığorta bazarı elə də yüksək inkişaf etməyib, insanlar ödəniş edib əmlaklarını sığortalamağa meylli deyillər. Bu baxımdan aqrar istehsalçıların sığorta haqqı ödənişlərində dövlətin iştirakı nəzərdə tutulurmu?***

- Bəli, dövlət bu məsələdə də aqrar istehsalçılara dəstək verəcək. İlkin mərhələdə dövlət aqrar istehsalçıların sığorta haqqının 50 faizini dövlət ödəyəcək. Bu, məhsuldan asılı olaraq dəyişə biləcək. Düşünürəm ki, ilk illərdə fermerlərin 10 faizi sığortadan yararlanacaq, daha sonra bu göstərici getdikcə artacaq. Yəni istehsalçılar görəcəklər ki, sığortalanmaq hansı üstünlüklər yaradır. Dünya təcrübəsi də göstərir ki, aqrar sığortanın inkişafı, təkmil bir sistemin oturuşması üçün 10 il vaxt lazım gəlir. Biz əlbəttə, çalışacağıq ki, daha qısa müddətdə fermerlərin sığorta sistemindən faydalanmasına nail olaq.

***- Dövlətin bu prosesdə iştirakı nə qədər davam edəcək? Hansısa mərhələdə dövlət aqrar sahənin sığortasındakı iştirakdan çəkiləcəkmi?***

- Bütün dünyada dövlətin aqrar sığorta sahəsində iştirakı davamlı olur. Yəni bu, elə bir sahədir ki, dövlətin dəstəyinə həmişə ehtiyac var. Bu baxımdan, Azərbaycanda da dövlətin sığorta yığımlarında 40-50 faizlik iştirakı daimi olacaq.

***- Modelin tətbiqi üçün nə qədər vəsait tələb olunacaq?***

- İlkin mərhələdə, təxminən, 9 milyon manat nizamnamə kapitalına ehtiyac olacaq. Bu sahədə subsidiyalaşdırma üçün 1-ci il 8,5 milyon manat, 2-ci il 10 milyon manat, növbəti illərdə 12,5-13 milyon manat vəsait lazım olacaq. Aqrar sığorta mexanizminin tam gücü ilə işləyəcəyi 10-cu ildən sonra isə həmin məbləğ azalacaq. Çünki bu növ sığorta özünü maliyyə cəhətdən təmin edəcək.

**❑ Dünya SAKİT,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

# Böyük qonşuların böyük riskləri

## Azərbaycanın 3 nəhəng qonşusu Amerika ilə düşməndir; Bakının partlayışa hazır minaların ortasında təmkinli davranışları təqdir olunur

**Azərbaycanın 3 böyük qonşusu - Rusiya, Türkiyə və İran - hazırda ABŞ-la müharibə vəziyyətindədir. ABŞ administrasiyası Rusiyaya qarşı ciddi sanksiyalar tətbiq edib.**



Xüsusən də Ukrayna böhranı və Krımın işğalından sonra Vaşinqton Moskva ilə "körpüləri yandırıb", hər il Rusiyaya qarşı daha ağır sanksiyalar tətbiq olunur. Türkiyə isə NATO üzvü və ABŞ-ın Şərqdəki əsas müttəfiqlərindən biri olsa da, son illərdə bu ölkə ilə Vaşinqton ciddi soyuqluq yaşayır. Baxmayaraq ki, danışıqlar, müzakirələr davam edir, lakin Vaşinqton Türkiyəyə qarşı ticarət məhdudiyyətləri tətbiq etməyə hazırlaşır, üstəlik Ankara Rusiyadan S-400 zenit komplekslərini alacağı təqdirdə Rusiya sanksiyaları ilə üzləşə bilər.

Ancaq təbii ki, Vaşinqtonun bu regionda əsas rəqibi İrandır. ABŞ administrasiyası ötən il İranla imzalanmış nüvə sazişindən çıxıb və Tehrana qarşı avqustun 7-də, daha sonra noyabrın 4-də sanksiya paketləri elan edib. Ən son olaraq isə Vaşinqton İrandan neft alışına icazə verdiyi 8 ölkəyə qoyulan limiti mayın ikisindən etibarən ləğv edib. Ancaq bundan daha faciəli vəziyyət ondan ibarətdir ki, Vaşinqton Tehrana h\rbi müdaxilə edə bilər, başqa sözlə iki ölkə arasında müharibə ehtimalı var. Doğrudur, İran və ABŞ arasında müharibə riski 2000-ci illərin əvvəllərində, yəni 2006-2012-ci illərdə də gündəmdə olub. Ancaq indi məsələ necə deyərlər, daha irəli aparılıb.

ABŞ prezidenti İranın əsas hərbi gücü olan İnqilab Keşikçiləri Korpusunu (Sepah) terror təşkilatı kimi tanıyıb. Buna cavab olaraq İran da ABŞ ordusunu terror təşkilatı elan edib. Bu isə o deməkdir ki, qarşı-qarşıya gəldikləri zaman hər iki qüvvə bir-birinə atəş açmaq üçün hüquqi əsasa sahibdir. Bu isə təbii ki, savaş riskini yüksəldir. Baxmayaraq ki, ABŞ hərbiyyəsi İrana hərbi müdaxiləni dəstəkləməyib, nə indi, nə də daha əvvəl. Lakin indi Trampın çox yaxın əməkdaşlıq etdiyi İsrail hakimiyyəti İrana zərbə endirilməsində maraqlıdır. Çünki Tehranın dəstəklədiyi silahlı güclər İsrail ətrafında gündən günə möhkəmlənir. Fələstin, Livan, Suriyada indi İranın dəstəkləyib, silahlandırdığı savaş qrupları mövcuddur. Vaşinqton sanksiyalar vasitəsilə İranı zəiflətmək və onun Yaxın Şərqdəki silahlı qruplara dəstəyini dayandırmaq, ya da azaltmaq *(ən pis halda)*, eləcə də İranın nüvə və ballistik raket proqramlarını dayandırmağa çalışır. Və təbii ki, bunlar təsirsiz olsa, Vaşinqton 12 il əvvəl dəbdə olan frazada deyildiyi kimi, "masa üzərində olan hərbi müdaxilə variantına" da əl ata bilər.

Əlbəttə, bu cür xəbərlər, yəni İrana hərbi müdaxilə və ya necə deyərlər, müharibə gündəmə gələndə Azərbaycanda ciddi müzakirələrə səbəb olur. Təkcə ona görə yox ki, qonşu ölkə və Azərbaycandakı əhalidən 3 dəfə çox azərbaycanlı İranda yaşayır, həm də ona görə ki, hərbi münaqişə Azərbaycan Respublikası üçün ciddi risk yaradır. Yeri gəlmişkən, İran ordusunun generalı "Xatm əl-Ənbiya" qarnizonunun komandanı Aulam Əli Rəşid qonşu ölkələrə xəbərdarlıq edərək İranla müharibənin qonşu ölkələr üçün baha başa gələcəyini bildirib. Burada nəzərdə tutulan təhlükə yalnız müharibənin gətirəcəyi dağıntılar barədə deyil, İran rəhbərliyinin qonşulardan narahat olmasıdır. Əlbəttə, müharibə olarsa bu Azərbaycana böyük sayda insan axını, ekoloji fəlakət, qıtlıq, acılıq kimi böhranlar gətirə bilər. Lakin müharibə həm də hər zaman qonşu ölkələr üçün risk, daha dəqiqi müharibəyə qatılmağın doğuracağı təhlükə yaradır. Əlbəttə, rəsmi Bakı hələ 7-8 il əvvəl bəyan edib ki, öz ərazisindən İrana qarşı istifadəyə icazə verməyəcək. Bu açıqlamalar o zaman verilirdi ki, ABŞ mətbuatı Azərbaycan ərazilərindən İrana qarşı istifadə olunacağı ilə bağlı məlumatlar yayırdı, İran tərəfi isə sürəkli olaraq qonşu ölkələri İsrail kəşfiyyatının İrana qarşı təxribatlarına həyata keçirmək üçün şərait yaratmaqda ittiham edirdi. Əlbəttə ki, həm o zaman, həm də sonra rəsmi Bakı təmkinli davrandı, İrana qarşı əməliyyatlara qarışmama kursunu davam etdirdi.

**Əlbəttə, Avrasiyanın 3 böyük imperiyasının ortasında yerləşmək və bunların hər üçü ilə bir formada - mədəni, tarixi, etnik, dini-məzhəbi və sair - bağları olmaq Azərbaycan üçün hər zaman risk olmaqla yanaşı, həm də bəzən üstünlük də ola bilir. Lakin indi dünyanın elə dövrdür ki, risklər daha çoxdur. Qonşu ölkələrimiz indi dünyanın diqqət mərkəzində, necə deyərlər gərginliyin qaynar nöqtəsində yerləşirlər. Bu isə bizim üçün risk olmaqla yanaşı, daha incə, müdrik siyasət tələb edir. Çünki ətrafımız hər an partlamağa hazır minalardan ibarətdir, bir yanlış addım sözün bütün mənalarında "partlayışa" səbəb ola bilər.**

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**



## "İndi maddi yaradıcılıq lazımdır"

### Musa Yaqub səhhətindən, yazıçı Anardan, fəxri addan danışdı

**Azərbaycan şeiriyyətinin, poeziyasının görkəmli nümayəndələrindən biridir Musa Yaqub. İlk adı Müsavat olan Musa müəllim son illərdə xəstəlikdən əziyyət çəkir.**

Bu günlərdə şair Azərbaycan Yazıçılar Birliyindən, sədri Anar Rzayevdən şikayətlənmişdi ki, onun müalicəsinə kömək eləmirlər, Türkiyəyə göndərmirlər.

AYB-dən isə deyilmişdi ki, köməklik göstərilib, 80 illik yubileyi keçirilib, fəxri ad alması üçün dövlət rəhbərliyinə təqdimat verilib.

Usta söz adamı fəxri adlar almasa da bu gün onun şeirləri hər kəsi valeh edir, sevilir, əsl xalqın şairidir. Ötən gün M.Yaquba zəng edərək hal-əhvalını tutduq.

Şair xəstəliyi ilə əlaqədar çox danışmaq imkanında olmadığı üçün suallarımızı qısa, çətinliklə cavablandırdı, bəzilərini münasibət bildirmək taqətində olmadı. O, "Yeni Müsavat"a bildirdi ki, nisbətən yaxşıdır:

"Belə...Pis deyiləm. İndi bir az daha yaxşıyam deyə bilərik. Müalicəm davam edir, dərmanlar qəbul edirəm. Həkim hansı dərmanı məsləhət edirsə, onları içirəm".

M.Yaqub dedi ki, ailə üzvləri yanındadır, ona baxırlar. Yaradıcılıqla məşğul olmağa gəlincə, özünə gəlməyini gözlədiyini söylədi: "Yazmağa imkan var, amma indi maddi yaradıcılıq lazımdır. Özümə gəlim yazacağam. Məni ziyarətə gələnlər çoxdur. Tanıdığım - tanımadığım adamlar gəlirlər, gedirlər. İndi maddi cəhətdən çox çətindir. Gərək hesabında pulun olsun. Mənə də heç bir köməklik yoxdur".

Şair AYB-nin fəxri adla bağlı təqdimatından məlumatlı olduğunu, hələlik heç bir irəliləyiş olmadığını bildirdi: "Anar mənim dostum olub. Yanıma gəliblər, ziyarət ediblər. Allah sizə də can sağlığı versin. İsmayıllının Buynuz kəndindəyəm, nə vaxt istəyirsiniz gəlin".

Danışmaqda çox əziyyət çəkdiyi üçün Musa müəllimi yorub əlavə suallar vermirik. Ona evinə gələcəyimizi bildiririk.

Musa Yaqub 1937-ci il mayın 10-da İsmayıllının Buynuz kəndində anadan olub. 1970-ci ildən AYB-nin üzvüdür. 1995-2000-ci illərdə deputat olub.

Bakıya köçəndən sonra Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatı təbliğ bürosunda direktor müavini, "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri vəzifəsində çalışıb.

Ədəbi fəaliyyətə 1957-ci ildə "Azərbaycan" qəzetində çap olunan "İki qəlb, iki dünya" poeması ilə başlayıb. Hazırda Parkinson xəstəliyindən əziyyət çəkir.

2009-cu ildə M.Yaqubun həyat yoldaşı rəhmətə gedib. "Azərbaycan" jurnalında şairin həyat yoldaşının ölümünə həsr etdiyi silsilə şeirlər çap edilmişdi.

O şeirlərdən göründü ki, artıq Musa Yaqub yaradıcılığında həm intonasiya baxımından, həm əhval baxımından sanki tamam başqa bir mərhələ başlayıb. Bu günə qədər də Musa Yaqub həmin əhval-ruhiyyənin şairidir.

Elə son müsahibəsində də şair 3-4 gün əvvəl şeir yazdığını bildirib: "Mövzusu beləydi ki, evin içində oturub evə təlәsirdim. Bütün otaqları axtardım, yoldaşımı tapmadım. Yeni məhəbbət mövzusu".

Xatırladaq ki, deputat Fazil Mustafa bu günlərdə Azərbaycanın bir sıra dəyərli insanlara, yəni nomenklaturadan kənar olan yaradıcı insanlara dövlət dəstəyinin göstərilməməsindən danışmışdı.

F.Mustafanın sözlərinə görə, Azərbaycanın nomenklaturaya daxil olan sənət və incəsənət xadimlərinin çoxu yalnız öz şəxsi problemlərini dövlət başçısı qarşısında qaldırırlar:

**"Məsələn, Musa Yaqub ağır vəziyyətdədir, ancaq onun müalicəsi ilə heç bir qurum məşğul olmur. Demirəm ki, Musa Yaquba xalq şairi adı versinlər. O, onsuz da çoxdan xalqın şairidir. Eyni zamanda Ramiz Rövşən üçün demirəm ki, ona xalq şairi adı verilsin, o da xalqın şairidir.**

**Ancaq xalqın taleyində müstəsna əhəmiyyət daşımayan insanların müalicəsi üçün dövlət dəstəyi ayrılırsa, bu cür dəyərli insanların müalicəsinə dövlət dəstəyi göstərilməlidir, yardımlar olunmalıdır".**

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Narkotiklə tutulan xanım baş redaktorun barəsində həbs qətimkan tədbiri seçildi

Şəfəq Ağacan isə işçisi tərəfindən şərləndiyini iddia edir; **Hüquq müdafiəçisi:** "Hüquq-mühafizə orqanları faktı araşdırıb, hüquqi qiymət verəcəklər"

**Bakı Şəhər Baş Polis İdarəsinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində Nərimanov rayonu ərazisində qurudulmuş marixuananı 100 ABŞ dolları və 1830 manata satarkən saxlanılan Bakupress.az saytının rəhbəri Şəfəq Ağabalayeva (Ağacan) şərlənməsi haqda status paylaşıb. Baku.ws xəbər verir ki, Ş.Ağacan facebook səhifəsində paylaşdığı statusda bu barədə yazıb:**

"Məni yaxından, ictimaiyyətdən tanıyan hər kəs neçə bir qadın və insan olduğumu çox yaxşı bilir. Mənə işçi olaraq gördüyüm və düşünürəm ki, yanıma planlı yerləşdirən bir işçimin yardımıyla böyük bir böhtan atılıb və şərlənmişəm. Bunu demək istəyirəm ki, bu günə qədər ayağımda, qolumda qüvvət olduqca bacardığım qədər xalqımın problemlərinə qaçmış və həll etməyə çalışmışam. Bu gün mən hərəkət edə bilmirəm və mənə dəstək olmanızı istəyirəm. Hazırda üzərimə oynanan möhtəşəm ssenarinin qurbanı olmaq istəmirəm. Mən həmişə narkomaniya bəlasına qarşı olan biri olmuşam. Məni tanıyan hər kəsdən istəyim və xahişim budur, məni tək qoymayın. Tanımayanlar isə fəaliyyətimlə maraqlansınlar və qərarlarını versinlər. Hər şeydən öncə mən bir anayam".



Vaxtilə Şəfəq Ağabalayevanın əməkdaşlıq etdiyi Təmiz Dünya Qadınlara Yardim İctimai Birliyinin rəhbəri Mehriban Zeynalova azvision.az-a bildirib ki, bu xəbər onun üçün gözlənilməz olub. "Şəfəq bizimlə 4-5 il öncə Sumqayıtda zorakılığa məruz qalmış qadınlarla bağlı əməkdaşlıq edirdi. Onda evdar qadın idi, heç yerdə işləmirdi, saytı da yox idi. O, mənim rəsmi işçim olmayıb. Bizə qadınlarla əlaqədar müraciət edəndən sonra onunla iş birliyim yaranmışdı. Özünün müəyyən etdiyi xanımlar var idi, mənim tərəfimdən istiqamətləndirilməmişdi. Hansısa məsələ olanda zorakılıqdan əziyyət çəkən qadınların yanına düşüb, polisə gedirdi. Amma biz cinayət tərkibli əməllərlə məşğul olan şəxslər ilə əməkdaşlıq etmirik. Onun belə bir işlə məşğul olduğunu bilmirdim. Mənim üçün gözlənilməz oldu. Hüquq-mühafizə orqanları faktı araşdırıb, hüquqi qiymət verəcəklər", - deyə M.Zeynalova vurğulayıb.

Qeyd edək ki, yayılan məlumatda bildirilir ki, Şəfəq Ağacan aprelin 30-dan mayın 1-nə keçən gecə Bakı Şəhər Baş Polis İdarəsinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində Nərimanov rayonu ərazisində qurudulmuş marixuananı 100 ABŞ dolları və 1830 manata satarkən saxlanılıb. Faktla bağlı cinayət işi başlanılıb, Ş.Ağacan barəsində məhkəmə qərarı ilə 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib. O, istintaq təcridxanasına köçürülüb.

**Xatırladaq ki, Ş.Ağacan 2016-cı ilin may ayında intihara cəhd edib və xeyli sayda dərman qəbul etmişdi. O zaman Nicat adlı şəxs tərəfindən şantaj oldunduğu üçün özünü öldürmək istədiyi haqda məlumatlar yayılmışdı.**

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

# "İki halda canavarın vurulmasına görə vətəndaşı heç bir cərimə və cəza gözləmir"

**ETSN rəsmisi:** "Kəndli, yaxud təsərrüfat sahibi yırtıcıların hücumları zamanı özünü, təsərrüfatını qorumaq hüququna malikdir"

**"Özünümüdafiə və təsərrüfatını qorumaq məqsədilə canavarın vurulmasına görə vətəndaşı heç bir cərimə və cəza gözləmir".**

"Report" xəbər verir ku, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyininin (ETSN) Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə bu gün keçirilən mətbuat konfransında deyib.



O bildirib ki, 1979-cu ildə qəbul olunan, Avropanın vəhşi təbiəti, yabanı florası və təbii yaşayış mühitinin qorunması Konvensiyası canavarların ovlanmasını qadağan edir: "Azərbaycan bu Konvensiyanı 1999-cu ildə ratifikasiya edib. Bu səbəbdən də istisnalar olmaqla, bir sıra vəhşi heyvanların, o cümlədən canavarların ov obyekti kimi vurulmasına icazə verilmir. Meşənin içində, canavar və digər vəhşi heyvanların təbii areallarında onları səbəbsiz olaraq, əyləncə naminə öldürmək olmaz. Vətəndaşların təhlükəsizliyi nöqteyi-nəzərindən canavarların sayının tənzimlənməsi mümkündür, lakin bu elmi əsaslarla həyata keçirilməlidir. Belə ki, əgər canavar yaşayış məntəqəsinə və ya otlaq sahələrində otlayan mal-qaraya hücum edirsə və bu hal təkrarlanaraq əhalinin təhlükəsizliyinə, kənd təsərrüfatı heyvanlarına ciddi təhdid yaradırsa, onun vurulması, sayının tənzimlənməsi mümkündür. Buna görə heç bir cərimə və ya cəza tətbiq olunmur. Çünki Azərbaycan qanunvericiliyində özünümüdafiə tədbirləri üçün xüsusi maddələr mövcuddur və kəndli yaxud, təsərrüfat sahibi yırtıcıların hücumları zamanı özünü, təsərrüfatını qorumaq hüququna malikdir".

H.Əlizadə qeyd edib ki, vəhşi heyvanların, o cümlədən canavarların kəndlərə, insanlara hücumlarının qarşısının alınması üçün nazirlik tərəfindən bir neçə il əvvəl müvafiq regional şöbələrə göstərişlər verilib və işçi qruplar yaradılıb. Bu işçi qruplar yırtıcıların hücumu ilə bağlı müraciətlər daxil olduqda ərazilərə gedərək araşdırma aparır və mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görülür: "Son dövrlər bu halların daha da intensivləşməsi ilə bağlı Nazirliyin əksər aidiyyəti yerli qurumlarında əməkdaşlarımız və peşəkar ovçulardan ibarət işçi qruplar yaradılıb. Bu qruplar insanlara təhlükə yaradan ərazilərdə yırtıcıların sayının tənzimlənməsini diqqətdə saxlayır, növbətçilik təşkil olunur, əhali arasında maarifləndirmə işləri həyata keçirilir. Hər hansı bir heyvanının nəsli kəsilməsinə cəhd göstərmək yolverilməzdir. Biz aprel ayından etibarən nazirilikdə işçi qrupu yaratdıq. Xüsusən, işçi qrupunda çalışan ovçular yaşayış məntəqələrində nəzarət etməyə cəlb olundular".

O bildirib ki, ov məqsədiylə canavarı ovlayanlara 1050 manat cərimə tətbiq olunacaq. Amma özünü qorumaq məsqədiylə canavar öldürənlərə cərimə tətbiq olunmur.

Direktor vətəndaşlardan xahiş edib ki, təsərrüfatlarında zəruri mühafizə tədbirləri görsünlər və təhlükə barədə dərhal Nazirliyin 168 nömrəli "Qaynar xətti"nə məlumat versinlər.

**Elan**

**Ağdaş rayon Orta Ləki kəndində Əhmədov Qüdrət Hüseynalı oğluna məxsus JN:1016 saylı Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

# Məhkəmə qərarı 5 ildir icra olunmur

Vətəndaş icra məmurunu ittiham edir, qarşı tərəf isə şikayətçini günahlandırır

**Qaradağ rayon sakini Şəlalə Əliyeva redaksiyamıza müraciət edərək, şikayətlənib. Şikayətçi qeyd edib ki, 2014-cü ildə Qaradağ Rayon Məhkəməsi onun xeyrinə qərar qəbul etsə də, artıq 5 ildir ki, icra nümayəndəsi bu qərarı icra etməkdən yayınır:**



"2014-cü ildə Elton Əliyev adlı tanıdığım şəxs məndən 1500 manat borc pul götürmüşdü. Qısa zamanda borcunu qaytaracağını desə də, vədini yerinə yetirmədi. Dəfələrlə pulun geri qaytarılmasını tələb etsəm də bunun heç bir əhəmiyyəti olmadı və mən məcburən hüquq mühafizə orqanlarına müraciət etdim. Məsələ ilə bağlı 29 avqust 2014-cü il tarixində Qaradağ Rayon Məhkəməsində işə baxıldı və məhkəmənin qərarı ilə qarşı tərəf tez bir zamanda 1500 manat borcu mənə qaytarmalı idi.

Artıq məhkəmə qərarından 5 il ötməsinə baxmayaraq Qaradağ rayon İcra və probasiya şöbəsinin əməkdaşı, icraçı Nazim Qasımov məsələyə biganə yanaşır. Borcun ödənilməsi ilə bağlı həm quruma, həm də icraçının özünə müraciət etsəm də, mənə ya sərt cavab verilib, ya da ki, "hara istəyirsən müraciət et" cavabı verilib. Bu günə qədər mənə olan borcdan bir qərik də olsun ala bilməmişəm".

**Şikayətçi qeyd edib ki, 5 ildir ala bilmədiyi borcu ilə bağlı bir neçə aidiyyəti qurumlara da müraciət etsə də, nəticə olmayıb**: "Bundan əvvəl Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər qurumlara müraciət etsəm də, sonda şikayətim yenidən Qaradağ rayon İcra və probasiya İdarəsinə yönləndirilib. Yenidən mənə verilən cavab eyni olub. Aidiyyəti qurumlardan, hüquq mühafizə orqanlarından xahiş edirəm, dövlətimizin məhkəməsinin çıxardığı qərara əməl olunması üçün mənə köməklik göstərilsin. Mən yalnız qərarın yerinə yetirilməsini istəyirəm. İcraçı Nazim Qafarovun məhkəmə qərarının icrasından hansı səbəbdən yayındığını hələ də anlaya bilmirəm".

**Məsələyə aydınlıq gətirmək üçün "Yeni Müsavat"ın əməkdaşı kimi Qaradağ rayon İcra və Probasiya Şöbəsinin əməkdaşı, icraçı Nazim Qafarovla əlaqə saxladıq. Qarşı tərəfin ünvanladığımız sualı sona qədər dinləmədən, aqressiv şəkildə verdiyi cavab bu cür oldu:**

"Siz birbaşa mənə zəng edə bilməzsiniz. Bunun üçün mətbuat xidmətimiz və nazirliyimiz var. İkinci bir tərəfdən Şəlalə Hacıyevanın işi məndə yoxdur. Üçüncü də məndə olan son məlumata görə qarşı tərəf qəşəng şəkildə axtarışdadır. Şəlalə Hacıyeva ora-bura, redaksiyaya şikayət etməkdənsə, zəhmət çəksin polisə desin, polis həmin şəxsi tutub bura gətirsin, icraçı da işi ilə məşğul olsun".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Piyadanı vuran "Range Rover"in sahibi haqda yeni məlumat

**Bakıda bir neçə gün öncə dəhşətli qəza törədən "Range Rover"in sürücüsü Mahir Əsədov haqda "Yeni Müsavat"a məlumat daxil olub. Həmin məlumatda bildirilir ki, Mahir Əsədov tikinti maqnatı, biznesmendir. Onun şirkətinin "Ağ şəhər"də bir neçə bina inşa etdirməsi, hakimiyyətdə güclü dayaqlarının olduğu da gələn məlumatlar sırasındadır. Mahir Əsədovun idarə etdiyi "Range Rover" markalı, Az 90 OG 002 nömrəli avtomobil aprelin 30-u saat 22 radələrində Nizami rayonu, M.Əliyev küçəsində, "Neolit" şadlıq sarayının qarşısında piyada 1978-ci ildə anadan olmuş Rüfət Məmmədovu vurub. Piyada zərbənin təsirindən yolun qarşı hərəkət hissəsinə atılıb, bu zaman "Mersedes" markalı başqa avtomobil də piyadanın üstündən keçib. Mahir Əsədov avtomobili saxlamayıb və sürətlə hadisə yerindən uzaqlaşıb. Piyada 3 saylı Şəhər Kliniki Xəstəxanasına aparılıb, hazırda vəziyyəti kritik ağır olaraq qalır, həyatına təhlükə var.**




Mahir Əsədovun Az 90 OG 002 dövlət nömrə nişanı daşıyan, dəyəri 100 min dollardan yuxarı olan azı 3 avtomobilin sahibi olduğu məlumdur. Bu barədə fotoları sosial şəbəkələrdə görmək olar.

Piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsini Nizami rayon Polis İdarəsinin müstəntiqi Vüsal Rzayev araşdırır. Müstəntiq Mahir Əsədovla bağlı açıqlama vermək istəməyib. Maraqlıdır ki, Nizami Rayon Məhkəməsində "Mercedes" markalı avtomobilin sürücüsü Seyhun Məmmədovun barəsində həbs qəti imkan tədbiri seçilib, Mahir Əsədov isə sərbəst buraxılıb. Hansı ki, piyadanı Mahir Əsədov vuraraq, qarşı yolla gələn "Mercedes"in altına atıb...

**❑ E.HÜSEYNOV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 96 (7266) 4 may 2019

**Aprelin 29-da İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin 5 illik fasilədən sonra videosu yayıldı. Bundan əvvəl Bağdadi sonuncu dəfə 2014-cü ilin iyulunda görüntülənmişdi. 2014-cü il iyunun 29-da Mosulda qədim məsciddə xütbə oxuyaraq xilafət elan edən İŞİD lideri sonrakı illərdə görünməmişdi. Ötən müddətdə isə Bağdadinin 5 dəfə "öldü" xəbəri yayılıb.**

# İŞİD liderinin videosunun şifrələri

## Bağdadinin 18 dəqiqəlik videosunda hansı mesajlar vardı?



Bütün bu cür videolarda olduğu kimi, İŞİD liderinin "Teleqram" şəbəkəsində yayılan 18 dəqiqəlik video çoxlu sayda mesajlar və əlbəttə ki, qruplaşma üzvləri və tərəfdarlarında ruh yüksəkliyi yaratmaq üçün xüsusi hazırlanmışdı. Həm də xüsusi mesajları ilə yadda qaldı. Və ötən müddətdə hələ də müzakirə və analiz edilməkdə davam edir.

Yeri gəlmişkən, Bağdadinin ötən müddətdə səs yazıları yayılıb. Sonuncu dəfə 2018-ci ilin avqustunda yayılan səs yazısında Bağdadi qruplaşmaya yeni qatılan Mali, Burkino Faso, Şri-Lankadan olan üzvləri təbrik edib. O zaman ciddi diqqət çəkməsə də, ötən ay Şri-Lankada baş verən terrorun xəbərçisi sayıla biləcək məlumat hesab oluna bilər.

Ancaq budəfəki video ciddi şəkildə fərqlənib. Özündə xeyli sayda mesajlar verib. Maraq doğuran və müzakirələrə səbəb olan detallardan biri də videoda Bağdadiyə təqdim olunan "hesabatlar" və üzərindəki yazılar diqqəti cəlb etdi. Bu cür qovluqların birinin üzərində "Türkiyə vilayəti", həmçinin Orta Asiya, Qafqaz, Əfqanıstan, Şri-Lanka vilayətləri yazılmış ayrı-ayrı qovluqlar gözə dəyir.

Videoda Bağdadi bir qədər yaşlansa da, sağlam və güclü görünür. Qısa çıxışında isə səlibçilərə qarşı mübarizənin davam etdiyi, bu mübarizənin uzun olacağı qeyd olunur. Həmçinin çıxışında Bağuzun itirildiyini bildirir. Bağuz Suriyada İŞİD-in əlində olan sonuncu yaşayış məntəqəsi hesab olunurdu. Kürd qüvvələri və ABŞ ordusu fevralda bu qəsəbəyə hücum əməliyyatı başladıb, martın 23-də isə qəsəbənin ələ keçirildiyi və Suriyada İŞİD-in məğlub edildiyi ABŞ prezidenti tərəfindən elan edilib.

BBC-nin məlumatına görə, məhz Bağdadinin bu videosundan sonra sosial şəbəkələr üzərindən İŞİD üzvləri və dəstəkçilərinin fəallaşması müşahidə olunmağa başlayıb. Onlar Bağdadiyə sədaqət bəyanları yayırlar. Bir çox İŞİD tərəfdarı isə profil şəkillərinə Bağdadinin sonuncu görüntüsünü qoyub.

**Videoda çəkilişin 1440-cı hicri ili Şaban ayı (2019-cu il 6 aprel və 6 may arası - K.R.) göstərilir, amma aprelin sonunda yayınlanıb.**

Bağdadinin çəkildiyi otaqda daha 3 nəfər var. amma bu şəxslərin üzləri görünmür. O da görünür ki, Bağdadinin yeri heç də həddən artıq qapalı, kiçik bir məkan deyil. İŞİD liderinin yerdə oturduğu, arxasında isə "Kalaşnikov" avtomatı görünür. Maraqlıdır ki, Bağdadinin yanında sərgilənən avtomat silah daha əvvəl əl-Qaidə lideri Usmaə bin Laden və onun müavini, hazırda qruplaşmaya rəhbərlik edən Ayman əz-Zəvahiri də videolarında eyni model avtomat silahlar görünür.

Həmçinin Bağdadi videoda özünü maksimum şəkildə "xəlifə" obrazında göstərilməyə çalışır. Xüsusən də İŞİD liderinin qarşısındakı qovluqlar onun aktiv fəaliyyət göstərdiyi, "vilayətlərdən" hesabatları qəbul etdiyini, yəni hələ də təşkilatın fəaliyyətini idarə etdiyini göstərir. Yəni bu video bir mənada İŞİD-in hələ var olduğu, qlobal səviyyədə bir təşkilat kimi davam etdiyini göstərmək məqsədi sezilir. Təbii ki, həmçinin yeni hücumların olacağı ilə bağlı siqnal verdi.

Maraqlıdır ki, Bağdadi videoda Afgrikadan İŞİD-ə qoşulan yeni üzvləri təbrik edir və bu zaman "qardaşımız Əbu Vəlid əs-Səhravi" ifadəsini işlədir. BBC analitiklərinə görə, bu şəxs İŞİD-in mərkəzi Afrikadakı yeni lideri ola bilər. Yeri gəlmişkən, mart ayında İŞİD-in mərkəzi Afrikada ilk dəfə üzə çıxan qrupları olub. Əs-Səhravi daha əvvəl əl-Qaidənin Böyük Səhra ölkələri ilə əlaqələrinə cavabdeh olub. 2015-ci ildə isə əs-Səhravi İŞİD-ə beyət etdiyini açıqlayıb. Maraqlıdır ki, Bağdadi "Xorasan vilayəti"ndə təşkilata yeni qoşulan qruplardan danışır, ancaq bu zaman ad çəkmir.

**Qeyd edək ki, "Xorasan Vilayəti" tarixən dini-siyasi cərəyanlar üçün əsas mərkəzlərdən biri olub.** İŞİD "Xorasan vilayəti" olaraq Əfqanıstan, Pakistan və Hindistanın müsəlmanlar yaşayan Kəşmir bölgəsini, eləcə də Şərqi İran da Xorasan vilayətinə daxil edir. 2015-ci ildə Xorasan filialını elan edib. Eyni zamanda Bağdadi Şri-Lanka terrorunu dəstəkləyib və oradakı müsəlmanlara birlik olmağa tövsiyə edib.

Bağdadinin videosunda ən maraqlı detal isə "Türkiyə vilayəti" yazılmış qovluq olub. Ancaq məsələ ondadır ki, İŞİD buna qədər heç zaman "Türkiyə vilayəti" elan etməyib. Baxmayaraq ki, İŞİD yayınlarında Türkiyədən, İstanbuldan (İŞİD İstanbulu "Konstantiniyə" olaraq adlandırır - K.R.) bəhs olunub. Bu isə İŞİD-in Türkiyə ilə bağlı hansısa planlarının olduğunu deməyə əsas verir. Hər halda tərəfdarları da bu cür şüarlar yayır sosial şəbəkələrdə.

Maraqlıdır ki, Bağdadinin əlindəki qovluqlardan birində Tunisin adı qeyd olunur, ancaq vilayət olaraq deyil. Məlum olduğu kimi, Tunis "ərəb baharı"nın başladığı ilk olmaqla yanaşı vətəndaş müharibəsindən kənarda qalıb, bu ölkədə çoxpartiyalı sistem qurulub. Bunun əvəzində isə Tunis islamçıları İraq və Suriyaya axışıb. İŞİD tərkibində ən çox əcnəbi məhz Tunis vətəndaşları olub. Tunisə olan seçilməsə bu ölkədə son aylarda İŞİD-in güclənməsi ilə bağlı məlumatlarla üst-üstə düşür.

Qeyd edək ki, mart ayında Bağuz qəsəbəsinin ələ keçməsindən sonra İŞİD-in rəsmən başa çatdığı elan olunub. ancaq bundan sonra İŞİD ard-arda Afrikanın bri neçə ölkəsində, eləcə də Şri-Lankada terror aktları törədib. Bununla da təşkilat məğlubiyyətə baxmayaraq hələ də güclü olaraq qaldığını göstərməyə çalışıb. Bağdadinin videosu isə İŞİD üzvlərinə ruh yüksəkliyi və hələ mövcudluq mesajlı verir. Həm də deyir ki, tərəfdarları qarşıda hələ uzun müharibəyə hazır olmalıdır.

**Daha bir maraqlı detal isə Bağdadinin elan etdiyi İŞİD liderlərinin adları olub.** Bunlar: Səudiyyə Ərəbistanından olan Əbdürrəhman əl-Anqari ət-Təmimi, İraqdan Əbu Hacir Əbdül Səməd əl-İraqi ət-Təblibi, Misirin Sinay yarımadasından (burada İŞİD-ə beyət etmiş Beyt əl-Makdis qruplaşması fəaliyyət göstərir - K.R.) Əbu əl-Vəlid əs-Sinavi, "Əbdul Hani əl-İraqi və Səudiyyə Ərəbistanından olan Əbu Musab əl-Hicazidir.

Maraqlıdır ki, Bağdadi xüsusi qəhrəmanlığını qeyd etdiyi media sahəsində çalışan çeçen, avstraliyalı və Belçikadan olan bir silahlının adını qeyd edir.

Maraqlıdır ki, İŞİD lideri ən son olaraq Sudan və Əlcəzairdə baş vermiş inqilablara toxunub. Ancaq maraqlıdır ki, əl-Qaidədən fərqli olaraq İŞİD lideri xalq etirazlarına dəstək verməyib. Bağdadi deyib ki, etirazlar rejimlərdən xilas olmaq üçün yetərli deyil, bir tiran gedəcək yerinə yenisi gətiriləcək. İrəli getmək üçün yeganə yolun cihad olduğunu bildirib.

**İŞİD liderinin yüksək səviyyədə, mesajlarla dolu videosu bir sıra şifrələrlə zəngin idi. Ancaq ümumi olaraq bu o deməkdir ki, İŞİD hələ varlığını qoruyub saxlayacaq, Yaxın Şərqdəki məğlubiyyətin əvəzini nisbətən kənar regionlarda, Afrika və Cənub-Şərqi Asiya regionunda davam etdirəcək. Bunun üçünsə ilk növbədə təşkilatın varlığını qoruması, liderin çağırışları lazım idi. Lakin bu video həm də İŞİD tədricən əl-Qaidə kimi "yeraltı" təşkilata çevrildiyini, əvvəlki kimi torpaq üzərində hakimiyyətinin qalmadığını göstərir.**

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

# Maduro əsgərlərlə yürüş etdi, Quaydo sabahkı məhşərə hazırlaşır...

## Müxalifət lideri xalqı hərbi hissələrin qarşısına toplaşmağa çağırdı, "Ağ Ev" ona maliyyə ötürülməsi yollarını axtarır; Kreml və Vaşinqtonun Venesuela savaşı qızışır



**Venesuela lideri Nikolas Maduro yüzlərlə əsgərin önündə yürüşünü əks etdirən video görüntülərini paylaşıb.**

"Yeni Müsavat" xəbər verir ki, dövlət başçısı əsgərlərin həmrəy və konstitusion quruluşa bağlı olduğunu qeyd edib.

Paytaxt Karakasda Fuerte Tiuna hərbi düşərgəsini ziyarət edən prezident yüzlərlə əsgər tərəfindən coşqu ilə qarşılanıb.

Əsgərlər önündə çıxışında Maduro bildirib ki, ordu xəyanət birliklərinə və qiyamçılara qarşı vahid mövqedə mübarizə aparmalıdır.

Hazırda ordu hakimiyyətin yanındadır və baş verənləri Qərbin çevriliş cəhdləri kimi qəbul edirlər.

**ABŞ Venesuela xalqına yardım etməyə hazırdır. Bu sözləri öz tvitter səhifəsində ABŞ Prezidenti Donald Tramp paylaşıb.**

O bildirib ki, Venesuela xalqının məruz qaldığı sərt repressiyalara son qoymağın vaxtı çatıb: "İnsanlar aclıqdan əziyyət çəkirlər. Onların yeməyi, suyu yoxdur.

Amma bu ölkə nə zamansa dünyanın ən zəngin dövlətlərindən biri idi. Biz onlara yaxşı günlər arzulayırıq. Biz yardımınıza gələcəyik".

ABŞ-ın dəstəklədiyi müxalif lideri Xuan Quaydo xalqa müraciət edib. O, xalqdan mayın 5-də mövcud rejimi dəstəkləyən silahlı qüvvələrin hərbi hissələrinin qarşısına toplaşmalarını xahiş edib.

Xatırladaq ki, bir neçə gün əvvəl müxalifət lideri və tərəfdarları mövcud prezident Maduronu devirmək üçün azsaylı hərbi qrupla küçələrə çıxsa da, ordu onları zərərsizləşdirib. Həmin vaxt ölkənin müdafiə nazirliyi bəyanat yayaraq, hakimiyyəti əmin formada qoruyacaqlarını bildirmişdi.

Trampın administrasiyası Venesuala müxalifətinin lideri Xuan Quaidoya maliyyə dəstəyi göstərməyin yollarını axtarır. Bu barədə CNN telekanalı informasiya yayıb.

Məlumata görə, Ağ Ev hazırda "müvəqqəti hökumət"in rəsmi Karakasdan asılı olmadan öz funksiyasını yerinə yetirə bilməsi üçün onun maliyyə ilə təmin edilməsi imkanlarını nəzərdən keçirir.

"Onlar hərbçilər də daxil olmaqla, müxtəlif insanlara maaş verəcəklər", - telekanala danışan mənbə bildirib.

"Habertürk"ün Vaşinqton təmsilçisi Sərdar Turqut yazır ki, ABŞ Prezidenti Donald Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton aylar öncə Venesuela məsələsini yaxından izləməyə girişən kimi, bu ölkədə hazırda baş verənlərin olacağı Vaşinqtonda danışılmağa başladı.

Con Bolton, Maduronu ölkədən zorla çıxararaq, yerinə Quaydonu gətirmək istəyir. Hətta bir ara Kolumbiyada yerləşdirilən ABŞ hərbçilərinin oradan Venesuelaya göndərilməsinin planı belə hazırlanmışdı.

ABŞ Xarici işlər naziri Mayk Pompeo, Venesuelada hadisələr başlarkən Maduronu ölkədən alıb Kubaya qaçıracaq təyyarənin hazır vəziyyətdə gözlədildiyini söyləmişdi. Bu xəbər təsdiq olunmadı, ancaq daha sonra Vaşinqtonda Putinin Maduronu bu fikirdən vaz keçirdiyi söylənməyə başladı.

ABŞ rəhbərliyi Kubanın davamlı olaraq Maduroya yardım üçün Venesuelanın daxili işlərinə qarışdığını düşünür. Kubanın arxasında da Rusiyanın durduğu Vaşinqtonda açıq söylənilir. Rəhbərlik Kubaya qarşı yeni sanksiyaların tətbiq edilməsi ideyası üzərində də işləməyə başladı.

Respublikaçılar Partiyasına yaxın olan mənbələr bir müddətdir ki, Trampın necə Putinə qarşı duracağının, eyni zamanda Rusiya ilə əməkdaşlığı haqqında irəli sürülən iddiaların necə əsassız olduğunun Venesuelada bir daha görüləcəyini söyləməkdədirlər.

Anlayacağınız odur ki, qlobal güc mübarizəsi, tam mənası ilə, Venesuelada partlamış durumdadır və hazırda bu mübarizənin asanlıqla bitəcəyinin mümkün olmadığı söylənilir. Elə görünür ki, Tramp və Putin Venesuelada sanki birbaşa mübarizə meydanına giriblər.

Qeyd edək ki, Quaydo hüquq- mühafizə orqanları ilə toqquşmalar zamanı biri 27 yaşlı qadın və digəri 24 yaşlı kişi olmaqla iki etirazçının həlak olduğunu bildirib.

**"Buna son qoymaq lazımdır, bu şəxslər öz törətdikləri cinayətlərə görə məsuliyyət daşımalıdırlar. Mən bunun uğrunda həyatımı belə qoyaram" Quaydo Twitter-də yazıb.**

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 96 (7266) 4 may 2019



# Canavarlar itlərdən daha qayğıkeşdir

**Avstraliyalı alimlər bir neçə təcrübədən sonra bu nəticəyə gəliblər ki, canavarlar itlərdən daha çox öz ailə üzvlərinin qayğısına qalırlar. Mütəxəssislər ehtimal edir ki, itlərin nüfuzu - guya onlar qayğıkeş və sadiqdilər - aldadıcı ola bilər. Araşdırmanın nəticələri "PLOS One" jurnalında dərc olunub.**

İki il bundan əvvəl Vena Universitetindən Reyçel Deyl və onun həmkarları bir sıra təcrübələr keçiriblər. Həmin təcrübələrə görə, ov zamanı canavarlar itlərdən daha çox ünsiyyətə meyllidir. Daha sonra bu nəticələr tənqidə məruz qalıb. Bundan sonra alimlər tapşırıqları daha da mürəkkəbləşdiriblər. Onlar itləri və canavarları ayrı-ayrı qəfəslərə qoydular. O qəfəslərdən birinə qab qoydular. Digər qəfəsin divarında isə içində müxtəlif şəkillər olan planşetlər quraşdırıldı.

İkinci qəfəsdə yerləşən heyvanların burunları ilə şəkillərdən birinə toxunmaq imkanı olub. Əgər it və ya canavar düzgün şəkli seçmək imkanı qazanıblarsa, onların qonşusu robotun köməyi ilə bir porsiya yemək əldə edirdi. Amma planşet sahibləri öz hərəkətlərinə görə heç nə əldə etmirdilər.

Eksperimentlər nəticəsində aydın oldu ki, canavarlar qonşularını yedizdirmək üçün şəkillərə basırlar. İtlər isə öz növbəsində daha çox şəkillərin üstünə basırlar. Zooloqlar hesab edir ki, canavarlar itlərdən daha az sosialdılar. Bundan başqa, aydın oldu ki, müasir itlərin əcdadları həyata daha tez uyğunlaşıblar.

# Alim özünü ilana yedirtmək istədi

**Discovery Channelin efirində nümayiş etdirilən eksperiment zamanı ilginc hadisə baş verib. Belə ki, anakonda eksperimenti həyata keçirən alimi "yeməkdən" imtina edib. İri bir ilan tərəfindən yeyilmənin necə bir hiss olduğunu araşdırmaq istəyən alimin adı isə Pol Rozoli olub. Geyindiyi xüsusi kostyum onun sağ və zərərsiz qalmasına yardım edəcəkdi. Amma anakondanı araşdırma qrupu aldada bilməyib. Belə ki, ilan onu yeməkdən imtina edib, sadəcə qolunu və çiynini möhkəm sarıb. "Sarılmalar" möhkəmləndə isə alim özünü ilandan azad edib və eksperimenti dayandırıb. Ötən ilin dekabrında alim təcrübə zamanı bir saat ilanın içində olmağı başarıb. Bu təcrübə ilə bağlı o, təəssüratlarını belə ifadə edib: "Axırıncı xatırladığım şey ilanın mənim üzümün qabağında geniş açılan ağzı idi. Ondan sonra hər şey qaraldı".**



# Zooparkda timsahı daşa basdılar

**Misirin paytaxtında yerləşən zooparkda izləyicilər timsahı daşlayıblar. Dəyən daşlardan timsah yaralanıb. Bu barədə lenta.ru saytı International Business Times-a istinadən yazıb. İnsident ötən həftələrdə baş verib. Növbəti gün şəhər meriyası facebook səhifəsində ölmüş heyvanın şəklini paylaşıblar. Ziyarətçilər daşı timsahın başına atıblar. Bu isə heyvanda daxili qanaxmaya səbəb olub və bu, onun ölümü ilə nəticələnib.**

Zooparkın veterinarı Arnor Ennaqfer deyib ki, bu cür hücumlara digər başqa heyvanlar da hədəf olur. Amma bu kateqoriyada daha çox şir və hippopotamlar var. "Bizdə təxminən 150 növ heyvan var. Biz hər qəfəsin yanına bir mühafizəçi təyin edəı bilmərik. İnsanlar heyvanlara hörmət etmək zorundadılar".

Bir neçə ay öncə isə məlum olmuşdu ki, naməlum şəxslər Salvador paytaxtında begemotu öldürüblər. Heyvanın ölümü ölkə əhalisi arasında böyük rezonans doğurub.





# "Ət yeməyi versəniz, ətinizi kəsərik"

**ABŞ-ın Los Anceles şəhərində vegan restoranının sahibi Metyu və Terces Engelqart restoranda yenidən ət yeməyi verəcəklərini elan edən kimi ciddi təpki ilə qarşılaşıblar. Hətta təpkilər ölüm təhdidinə qədər artıb. Metyu Engelqart deyib ki, bu, onların şəxsi qərarlarıdır: "Amma restoranımız hələ də vegan restoranıdır və hər zaman da belə qalacaq".**

Veqanlar isə vegeterianlardan fərqli olaraq təkcə ətdən yox, eyni zamanda heyvanlardan əldə edilən süd və yumurta məhsullarından da imtina edirlər.




**QOÇ** - Ailə üzvlərinizlə, eləcə də digər yaxınlarınızla mübahisələriniz gözlənilir. Bu səbəbdən də çılğın olmayın. Hər bir anlaşılmazlığı dözüm və səbrlə yoluna qoyun. Yeməyinizə də fikir verin.

**BUĞA** - Gün ərzində hər şey çıxardığınız qərarlardan asılı olacaq. Xüsusən də iş prinsipində kənar mövqeləri mütləq nəzərə almalısınız. Günün ikinci yarısında sənədləşdirmə işlərində yanlışlığa yol verməyin.

**ƏKİZLƏR** - Ailə üzvlərinizə qarşı qayğıkeş və mərhəmətli olun. Əgər onların arasında xəstə olanı varsa, hamıdan çox siz ürək yandırın. Axşama yaxın büdcənizin artacağı da gözlənilir. Bədxərclik etməyin.

**XƏRÇƏNG** - Ötən ayın sonlarında reallaşdıra bilmədiyiniz planlara görə məyusluq keçirməkdənsə, əzmkarlığınızı artırın ki, boşluqlar aradan qalxsın. Ən azından bu gün mütləq həyatınızda yenilik olmalıdır.

**ŞİR** - Hiss olunur ki, dünəndən bəri səhhətinizlə bağlı yüngül problem yaranıb. Odur ki, özünüzü qoruyun. İndi sizə qapalı yerdə çox oturmaq olmaz. Yeni işlə bağlı məramlarınızı mümkün qədər təxirə salın.

**QIZ** - Daxili orqanlarınıza diqqəti artırın. Əgər mədənizlə bağlı sancmalarınız varsa, həkimə müraciət edin. Fiziki rahatlığınızı təmin etmək üçün daha çox yataqda uzanmalısınız. Qalan şeylər düzələr.

**TƏRƏZİ** - Yaxşı olar ki, bütün planlarınızı saat 16-ya qədər başa çatdırasınız. Əks təqdirdə sonrakı vaxt düşərli olmayacaq. Ulduzlar deyir ki, içinizdəki şübhələrdən qurtulmayınca, xilasınız çətin olacaq.

**ƏQRƏB** - Daxili narahatlığınız günün ikinci yarısından etibarən aradan qalxacaq. Amma bu təqvimdə fiziki işləri kifayət qədər azaltmağınız məsləhətdir. Əks təqdirdə səhhətiniz pisləşəcək. Kalorili qidalara üstünlük verin.

**OXATAN** - Bəri başdan əmin ola bilərsiniz ki, bu gün ulduzlar maddi rifah halınızı yüksəldəcək. Bu istiqamətdə bütün mümkün variantlardan yararlanmalısınız. Uzaq səfərlərə isə çıxmağa tələsməyin.

**OĞLAQ** - Ətraf mühitin sərtliyinə qarşı acizlik nümayiş etdirməyin. Ən azı ona görə ki, bu hal sizdə bədbinlik yarada bilər. Fəallığınızı artırın. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Sizə elə gəlməsin ki, ünsiyyətdə olduğunuz adamların hamısından ağıllısınız. Bu təkəbbür sizi gözdən sala bilər. Gün ərzində daha sadə, daha mülayim olun. Əcnəbilərlə işbirliyinə getməyin.

**BALIQLAR** - Yeni görüşləriniz məqsədlərinizə yaxınlaşmaqda sizə yardımçı olacaq. Qarşı tərəfin ədalətli təkliflərini qəbul etməyə hazır olun. Bu gün yalan danışmaq və ya vəd vermək sizə əziyyət verə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Təqaüdə çıxdı, üstəlik 1.5 milyon qazandı



Kanadada bir nəfər təqaüdə çıxdığı ilk gün 1.5 milyon dollarlıq lotereya udub. BBC-in xəbərinə görə, Vankuverli Pinq Kuen Şumun aldığı biletə 1.5 milyon dollarlıq böyük uduş çıxıb. Bu isə onun təqaüdə çıxdığı gün baş verdiyi üçün ciddi xəbər sayılır. Xəbərdə eyni zamanda bildirilib ki, 28 aprel tarixi eyni zamanda Pingin ad günü olduğu üçün böyük mükafatı qazandığını öyrənən kimi ailəsi və dostları ilə bunu qeyd edib. Qazandığı pulla Çinə səyahət etməyi planlaşdıran Ping eyni zamanda bildirib ki, "Üç hadisənin eyni günə təsadüf etməsi inanılmazdır. Uzun illər çox çalışdım və bu sərvəti ailəmlə paylaşmağı dörd gözlə gözləyirəm".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190